# DÜŞÜNƏN İNSAN

№ 24 - Avqust 2013 - 2 AZN



# DÜNYAYA SEVGİNİ ÖYRƏDƏCƏK RƏHBƏR:

# Həzrəti Mehdi (ə.s)

- Quranda bəhs edilən İrəm şəhəri
- Münafiqin əsas xüsusiyyətləri
- Allah'a necə yaxın ola bilərik?
- Pinqvinlərin qeyri-adi xüsusiyyətləri
- Maddə dediyimiz məfhumun nə olduğunu tam olaraq bilirikmi ?

## 6 FİLM HƏDİYYƏ

Axırzaman 6 film (HD)




Bu jurnalın məqalələrinin hazırlanmasında
Harun Yəhyanın (Adnan Oktar)
əsərlərindən istifadə edilmişdir.

Aylıq abunə olmaq istəyənlər üçün
əlaqə nömrəsi:
012-434-93-01

DÜŞÜNƏN İNSAN - Avqust 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

DÜŞÜNƏN İNSAN

# içindəkilər

*DÜŞÜNƏN İNSAN ; AVQUST 2013*

İslam dünyasında keçən ay 6
Biomimetika 8
Quranda bəhs edilən İrəm şəhəri 14
Dəyərli qida mənbəyi: balıq 20
Allah’a necə yaxın ola bilərik? 24
Allah’ın isimləri: Kəbir 37
Eritrositlərin xüsusi olaraq yaradılmış yastı forması 38
Allah rızasının ən coxunu axtarmaq nədir? 42
Pinqvinlərin qeyri-adi xüsusiyyətləri 46
Özünü aldatmaq əvəzinə səmimiyyət 50
Bir ayə, bir açıqlama 53
Həzrəti Muhəmmədin (s.ə.v) gənclərə verdiyi dəyər 56
Fosillər təkamülü təkzib edir 60
Maddə dediyimiz məfhumun nə olduğunu tam olaraq bilirikmi ? 64

















# GÖY CİSİMLƏRİNİN ARALARINDAKI MƏSAFƏLƏR



Yer planeti, bildiyimiz kimi, Günəş sisteminin bir parçasıdır. Günəş sistemi isə qüsursuz planın və mükəmməl tarazlıqların olduğu bir məkandır. Günəşin diametri Yerin diametrinin 103 misli qədərdir. Bunu bir bənzətmə ilə açıqlayaq: Əgər diametri 12.200 km olan Yeri bir üzüm çəyirdəyi böyüklüyünə gətirsək, Günəş də bildiyimiz futbol topunun iki misli qədər böyüklükdə dairəvi bir kürə halına gələr. Əsl maraq doğuran şey aradakı məsafədir.

Təsəvvür edilə biləcək bir model qurmağımız üçün üzüm çəyirdəyi böyüklüyündəki Yer ilə top böyüklüyündəki Günəşin arasını təxminən 280 metr etməliyik. Günəş sisteminin xaricində olan planetləri isə kilometrlərlə kənara daşımağımız lazım olacaq.

Göy cisimlərinin kosmosdakı mövqeləri və aralarındakı bu nəhəng boşluqlar Yerdə canlı həyatın mövcud ola bilməsi üçün zəruridir. Göy cisimləri arasındakı məsafələr Yerdəki həyatı dəstəkləyəcək şəkildə bir çox universal güclə münasib bir uyğunluq təşkil edir. Bu məsafələr planetlərin orbitlərinə, hətta varlıqlarına təsir edir. Bu məsafələr indiki ölçüdən daha az olsaydı, ulduzlar arası cazibə qüvvəsi planetlərin orbitlərini möhkəm olmayan və qeyri-sabit hala gətirəcəkdi. Bu isə planetlərdə çox yüksək hərarət dəyişikliyinə gətirib çıxaracaqdı. Əgər boşluqlar bir az daha çox olsaydı, ifrat yeni ulduzlarla kosmosa atılan ağır elementlərin yayılması çox seyrək olacaq və Yer kimi dağlıq planetlər meydana gələ bilməyəcəkdi.

Ulduzlar arasında hal-hazırda mövcud olan boşluqlar Yer kimi bir planet sisteminin mövcud ola bilməsi üçün ən ideal məsafəyə malikdir.



**"Azərbaycan gənc müstəqil ölkə olmasına baxmayaraq, İslam həmrəyliyi məsələlərində çox fəaldır. Biz bundan sonra da çalışacağıq ki, İslam aləmində birliyi daha da möhkəmləndirək. Buna böyük ehtiyac vardır, çünki bizim gücümüz birliyimizdədir"**

**İlham Əliyev**



# Elmi-texnoloji Xəbərlər



## ELM ADAMLARI İLK DƏFƏ PƏTƏK GÖZ DÜZƏLDİBLƏR

Drozofil milçəyindən ilham alaraq panoramik görüntü verən süni pətək göz düzəldilib.

Avropalı elm adamları milçəklər və bənzər canlıların müxtəlif tərəflərdəki sürətli hərəkətləri eyni anda sezmə xüsusiyyətini ilk dəfə süni gözə tətbiq etməyi bacarıb.

"PNAS" jurnalında dərc olunmuş tədqiqatda elm adamları drozofil milçəklərinin gözündən nümunə götürərək düzəldilən "CurVACE" adlanan prototipin bükülmədən ətrafdakı müxtəlif sıxlıqdakı işıq dəstələrinə uyğunlaşan, yüksək meqapikselli panoramik görüntü təmin etdiyini vurğulayıblar.

Yüksək sürət tələb edən vəziyyətlərdə, məsələn, quruda və ya havada toqquşmaların qarşısının alınması üçün süni gözdən üçölçülü təyin etmə sistemlərində istifadə olunacağı bildirilib.

Tədqiqatçılar 360 dərəcəlik görmə əldə etmək üçün 2 süni gözü arxa-arxaya birləşdirməyin kifayət etdiyini qeyd ediblər.

# BİTKİLƏR GÖBƏLƏK TORU İLƏ XƏBƏRLƏŞİRLƏR

Bitkilər yerin altındakı göbələk torundan istifadə edərək bitki bitlərinin hücumunu bir-birlərinə xəbər verirlər.

Bitkilərin hava yolu ilə xəbərləşdiyi bundan əvvəl sübut olunmuş, məhv olmuş bitkinin sorduğu kimyəvi maddələrin qonşu bitki tərəfindən müəyyən edildiyi üzə çıxarılmışdı.

Yeni aparılmış bir tədqiqata əsasən, bitkilər yerin altında mycorrhizae adlı göbələklərdən ibarət tor ilə bir-birlərinə bağlıdırlar.

"Ecology Letters" adlı jurnalda dərc olunmuş tədqiqat bu göbələklərin bitkilər arasında ünsiyyətə kömək etdiyini aşkar edib. İngiltərədəki ekoloji tədqiqat institutlarının apardığı tədqiqatda göbələklərin əmələ gətirdiyi ipəbənzər torun təsirləri tədqiq olunub.

Tədqiqat qrupu xüsusilə bitki biti hücumunun təsirini araşdırıb.

Bir çox bitki həm bu bitləri uzaqlaşdıran, həm də onlarla qidalanan eşşək arılarını cəlb edən kimyəvi maddələr ifraz etməklə bitlərə qarşı mübarizə aparır.

Tədqiqat qrupu beş paxla bitkisi yetişdirərək bunlardan üçündə mikoriza (mycorrhizae) göbələk torlarının əmələ gəlməsinə imkan verib, digərlərində bunun qarşısını alıb.

Hava yolu ilə rabitəni kəsmək üçün bitkilər torbalarla örtülüb.

Bir bitkinin bitki bitlərinin hücumuna məruz qalmasına imkan verilib. Mikoriza göbələkləri olan bitkilərin dərhal kimyəvi müdafiə sistemi qurduqları müşahidə olunub, digərlərində isə heç bir kimyəvi reaksiya baş verməyib.

Tədqiqat qrupundan olan Con Piket mikoriza göbələyinin bitkidən fotosintez məhsulları aldığına görə bitkiyə yaxşılıq etdiyini – bitkilər arasında rabitə funksiyası yerinə yetirdiyini açıqlayıb.

Piket bu sistemin təsirli və güclü olduğunu vurğulayıb.



Düşünən İnsan, Avqust 2013

# İslam Dünyasında



## RUSLAR İSLAM DİNİNƏ ÖN MÜHAKİMƏ İLƏ YANAŞMIRLAR

Rusiya Turizm Səyahət Agentliyinin verdiyi açıqlamada "inanc turizmi" çərçivəsində 4 min turist üzərində apardıqları anket sorğusunda rusların 74%-inin İslam dininə ön mühakimə ilə yanaşmadığını deyib. İnanc və mədəniyyət səyahətlərinə rusların marağının günbəgün artdığını bildirən Baranov müştərilərin razılığı haqqında hazırladıqları anketdə 74% turistin İslama ön mühakimə ilə yanaşmadığını qeydə alıb.

Anketdə iştirak edən 4000 turistin 39%-inin həyatlarında ilk dəfə Türkiyədə məscidə girdiyini bildirən Baranov səyahət edənlərin 26%-inin ateist olduğunu vurğulayıb. Baranov: "Səyahət edən ruslar İslama qarşı ön mühakiməli deyil. Anketdə iştirak edənlərin 54%-inin İslam haqqında ümumi məlumatı yoxdur. Məscidlərdə din adamları və rəhbərlərinin verdiyi açıqlamaları diqqətlə dinləyirlər. Ruslar ən çox Allah`ın birliyi, Quran və hz. Muhəmmədin (s.ə.v) həyatı ilə bağlı suallar verirlər. Ön mühakimə ilə yanaşmırlar. Onları maraqlandıran şeyləri öyrənmək istəyirlər", - deyib.

Dini İşlər üzrə Nazirliyin bu il turistlərin çox girdiyi məscidlərə 250 məscid rəhbərinin təyin etməsini dəstəklədiyini bildirən Gursəs məscidə girən turistlərə xüsusi geyimlərin verilməsi və bu geyimlərin onlara hədiyyə edilməsinin də əhəmiyyətli təşəbbüs olduğunu qeyd edib.

Gursəs: "Məscidə baş çəkdikdən və məlumat aldıqdan sonra rusların İslam haqqında ön mühakimələri böyük ölçüdə aradan qalxır. İslam dini ilə maraqlanırlar. Məscidə gəldikdə, əsasən, çox sual verirlər. Öyrənməyi çox istəyirlər. Öyrənməkdə ön mühakiməli deyillər. Məsciddən çıxdıqda araşdırmağı sevən turistlər rus dilində Quran alırlar", -deyib.





# Keçən Ay



## Avropa İslamı yaxşı tanımır.

Avropada yaşayan türklərin 45%-i Avropada islamofobiyanın olduğunu deyir, 70%-i isə müsəlmanların ayrı-seçkilik və haqsızlığa məruz qaldığına inanır.

Türkiyənin Hacettepe Universitetinin Miqrasiya və Siyasət Araşdırmaları Mərkəzi aprel ayında avropada yaşayan türklərlə apardığı anket sorğusunda mühüm nəticələr əldə edib. Anket iştirakçılarının 45%-i avropada islamofobiyanın olduğunu deyib, 70%-i isə yaşadıqları ölkədə müsəlmanların haqsızlığa və ayrı-seçkiliyə məruz qaldığını ifadə edib.

Dr. Murat Erdoğanın rəhbərlik etdiyi mərkəz Berlində yerləşən "Data4U" araşdırma təşkilatı ilə birlikdə 100.000-dən çox türkün yaşadığı Almaniya, Fransa, Hollandiya, İngiltərə, Belçika, Avstriya, Danimarka, İsveç, Norveç, Finlandiya və İsveçrədə 2634 nəfərdən çox insan arasında anket sorğusu keçirib. "Avropada islamofobiyanın olduğunu düşünürsünüzmü?" sualına anket iştirakçılarının 45%-i "Bəli", 27%-i "xeyr" cavabı verib. Anketdə "Avropada islamofobiya varsa, bunun səbəbi nədir?" sualına: "İslamı yaxşı tanımamaq", - deyənlər 22% təşkil edərək birinci yeri tutarkən, "İslamı pis təqdim etmək", - deyənlərin sayı 17%, "Bəzi müsəlmanların səhvləri", - deyənlərin sayı 13% çıxıb. "İslamın içindəki zorakılıq", - deyənlər 4% təşkil edib. İştirakçılardan 19%-i bu suala: "Bilmirəm", - deyib, 16% isə sualı cavablandırmayıb.



## HƏR İL 5000 İNGİLİS MÜSƏLMAN OLUR

İngiltərədə 2011-ci ildə keçirilmiş əhalini siyahıya almaya dair Milli Statistika Bürosunun apardığı yeni analiz müsəlmanların sayının çox artdığını üzə çıxarıb. Londonda dərc olunan "The Economist" jurnalı "İslama dönüş" sayında bu artımın yerli müsəlmanların sayından daha çox olduğunu bildirib.

İslama üz tutan britaniyalıların sayının ildə 5200 nəfər olduğunu vurğulayan jurnal ümumilikdə 100.000 nəfərin İslamı seçdiyini yazıb.

2011-ci il əhalini siyahıya alma nəticələrinə əsasən, İngiltərə və Qallerdə 10 ildə müsəlmanların sayı 1.5 milyondan 2.7 milyona çatıb.





## Arı beyni daha ağıllı robotların düzəldilməsinə ilham verir

Arıların ətraf mühiti necə qavramasının öyrənilməsi robotların daha müstəqil olmalarına kömək edə bilər.

Bal arısının beyni yaxın gələcəkdə robotların daha müstəqil hərəkət etməsinə kömək edəcək.

Arıların duyğu orqanlarının simulyasiyasının hazırlanması üçün iybilmə və görmə duyğuları 1 milyon avro dəyərindəki bir layihə çərçivəsində tədqiq olunur.

Uçan robota tətbiq olunan arı beyninin simulyasiyası onun təhlükəsiz naviqasiya etmək üçün qərar qəbul etməsinə kömək edəcək.

Bu robot xilasetmə əməliyyatlarında və ya fermalarda bitkilərin mexaniki tozlandırılması üçün istifadə oluna bilər.

Şeffild və Susseks universitetlərindən alimlərin cəlb olunduğu tədqiqatlarda məqsəd arının sinir sisteminin modelini düzəltməkdir.

Duyğu orqanlarının işlək modeli robotda qurulacaq və onun bal arısı kimi həssas uçma qabiliyəti sınaqdan keçiriləcək. Layihənin kordinatoru, Şeffild universitetindən kompyuter mütəxəssisi Doktor Ceyms Marşal arı beynini simulyasiya etməyin süni intellekt sahəsində ən əsas çətinliklərdən biri olduğunu deyir. İndiyədək süni beyin hazırlamaq cəhdləri insan, meymun və siçanın koqnitiv sistemləri əsasında qurulmuşdur.

"Lakin təəccüblüdür ki, kollektiv yaşayan həşəratlar kimi nisbətən sadə canlılar daha mükəmməl koqnitiv qabiliyyətlərə malikdirlər", - dr. Marşal deyir.

Məlumdur ki, bal arıları qüsursuz qabiliyyətləri sayəsində koloniyalarına və ya pətəyə geri qayıda bilirlər. Onlar günəşin mövqeyini istinad nöqtəsi kimi qəbul edir və yolu hesablayarkən günəşin hərəkətini nəzərə alırlar.

# Biomimetika

Dr. Marşal: "Bal arısının beyni təqlid etmək baxımından onurğalıların beyni ilə müqayisədə kiçik və əlverişli olduğuna görə, ümid edirik ki, bu beyin modelini təqlid edərək uçan robotu sınaqdan keçirə biləcəyik", – deyir.

Hazırlanan sinir sistemi modelləri arı beynini təqlid etmək üçün güclü videokartlarla işləyəcək.

Bir çox elm adamı videokartdan elektron hesablama cihazları kimi istifadə edir, çünki videokartlar daha ucuz başa gəlir və istifadə cəhətdən ənənəvi superkompyuterlərdən daha asandır.

Tədqiqat qrupu ümid edir ki, süni arı beyni ilə işləyən robotlar sadəcə proqramlaşdırılmış tapşırıqlar yerinə yetirməyəcək, qəbul etdikləri informasiya əsasında qərar da verə biləcəklər.





# MÜNAFİQİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Münafiqlər iman gətirən səmimi müsəlmanlardan xarici görünüş baxımından elə də çox fərqlənmirlər, lakin daxili aləmləri tamamilə fərqlidir. Münafiqlər kənardan baxan insana dini yaşadıqları təəssüratını verə bilərlər. Danışıq və rəftarları ilə müsəlman təqlidi edə bilər, ibadətləri ilə özlərini dindar olaraq tanıda bilərlər. Ancaq onların din anlayışı Quranı deyil, öz yanlış məntiqlərini əsas olaraq qəbul edir. Dinlə bağlı düşüncələrinin təməlində mənfəət qazanma, öz istək və həvəslərini təmin etmək məqsədi yatır. Münafiqlər bu niyyətlərini gizlədərək möminlər arasında Quran əxlaqının yaşandığı mühitdəki gözəlliklərdən istifadə etmək istəyirlər. Allah'ın müsəlmanlar üzərində yaratdığı bolluq, bərəkət, gözəllik, hüzur, güvən, sevinc, qardaşlıq, şəfqət, mərhəmət, sevgi, hörmət mühitindən faydalanmağa çalışırlar. Həmçinin bu mənfəətpərəstliklərini heç kəsin hiss etmədiyini, müsəlmanları aldatdıqlarını düşünür və bunu çox yaxşı bacardıqlarına inanırlar.

Ancaq münafiqlər bu düşüncələrində çox yanılırlar. Çünki ən kiçik bir səmimiyyətsizlik belə iman gözü ilə baxdıqda dərhal anlaşılır. Lakin hər şeydən mühüm olanı gizlinin gizlisini bilən, hər şeyin iç üzündən xəbərdar olan Allah bu şəxslərin əsl üzünü bilir. Başqa sözlə, saxta olaraq daşıdıqları mömin əlamətlərinin də Allah qatında heç bir dəyəri yoxdur.

Allah bu şəxslərin etdikləri ibadətlərin dəyərsiz olduğunu **"... Şübhəsiz ki, bunların etiqad etdikləri məhvə məhkumdur, gördükləri işlər isə batildir" (Əraf surəsi, 139)** ayəsi ilə ifadə edir. Həmçinin Allah münafiqlərin səmimiyyətsiz dindarlıqlarından, gizli qaldığını düşündükləri yönlərindən də xəbərdar olandır. Başqa sözlə, münafiqlər bu saxtakar yanaşmaları ilə ayədə xəbər verildiyi kimi, yalnız özlərini aldadırlar və şüurunda deyildirlər. (Bəqərə surəsi, 9)

## İMAN GƏTİRMƏDİKLƏRİ HALDA, İMAN GƏTİRMİŞ KİMİ GÖRÜNÜRLƏR

Başlıqda da ifadə etdiyimiz kimi, ikiüzlü insanların təməl xüsusiyyəti iman gətirmədikləri halda, iman gətirmiş kimi görünmələridir. Bunun əsas səbəbi isə Allah'a imanlarının qəlbən deyil, saxta və insanlara meyilli olmasıdır. Allah bu şəxslərin vəziyyətini bir ayədə belə xəbər verir:

**Binasını Allah qorxusu və (Onun) rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Münafiqlər mənfəətlərinə möminlər vasitəsilə qovuşacaqlarını düşündüklərindən mömin təqlidi etmək üçün böyük səy göstərirlər. Dinlə bağlı düşüncələrindəki bu ikiüzlülüyün bir

nəticəsi olaraq qaneedici söhbətlərlə müsəlmanları aldada biləcəkləri düşüncəsinə qapılırlar. Quranda **"Sizi məmnun etmək üçün Allah'a and içərlər; halbuki mömin isələr, məmnun edilməyə Allah və elçisi daha layiqdir" (Tövbə surəsi, 62)** ayəsi ilə münafiqlərin bu səylərinə diqqət çəkilmişdir.

Münafiqlər insanları iman gətirdiklərinə inandırmağa çalışır, insanlara görə yaşayırlar. Lakin tək qaldıqda və ya özləri kimi münafiq xarakterli şəxslərlə bir yerə gəldikdə Allah'ın özlərini anbaan izlədiyinin, hər nə edirlərsə etsinlər, hər nə düşünürlərsə düşünsünlər bunu bildiyinin fərqində deyillər. Bu iman pozuntusuna görə, müsəlmanlarla birlikdə olarkən ibadətlərini yerinə yetirir, onlar kimi davranır, onlar kimi danışdıqları halda, onlardan uzaqlaşdıqda ibadətlərini tərk edə bilir, eynilə bir inkarçının üslubu ilə danışa bilir, dinsiz insanlar kimi davrana bilirlər. Ancaq təqlid qabiliyyətləri nə qədər inkişaf etmiş olsa da, Allah Quranda münafiqlərin vəziyyətlərinin mütləq ortaya çıxacağını bildirir.

**Münafiqlər, həqiqətən də, Allah'ı aldatmağa çalışırlar. Halbuki, (Allah) onları aldadır... (Nisa surəsi, 142)**

## ALLAH'I ÇOX AZ XATIRLAYIRLAR

Münafiqlərin ən diqqət çəkən xüsusiyyəti Allah'la əlaqələrinin olmamasıdır. Qəlbən Allah'la birlikdə deyillər, Ona yönəlməz, Onu xatırlamaz, Ondan bağışlanma diləməzlər. Bunu müsəlman görünmək üçün zərurət kimi gördükdə edər və Allah'ı çox az anarlar. Allah bir Quran ayəsində bu həqiqəti belə bildirir:

**Münafiqlər, həqiqətən də, Allah'ı aldatmağa çalışırlar. Halbuki, (Allah) onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allah'ı olduqca az yad edərlər. (Mücadilə surəsi, 19)**

**Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allah'ı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar. (Tövbə surəsi, 67)**

## TƏKƏBBÜRLÜDÜRLƏR

Bir möminin əsas xüsusiyyətlərindən biri təvazökar olması, hər zaman səhv edə biləcəyini qəbul etməsi və ona verilən öyüd və xəbərdarlıqlara da dərhal təslim olmasıdır. Münafiqlər isə çox qürurlu və özünü bəyənmiş bir əxlaqa sahibdirlər. Onlara veriləcək heç bir öyüdü dinləməz, səhv etdiklərini qəbul etməzlər. Çox ağıllı olduqlarını, hər şeyin ən yaxşısını bildiklərini zənn edirlər. Üstəlik, Allah'ın saleh qulu olduqlarını iddia edirlər. Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlərin Peyğəmbərimizin (s.ə.v) özləri üçün bağışlanma diləmələrini qəbul etməmələri münafiqlərin sahib olduqları qürurun ən bariz nümunəsidir:

**Onlara: "Gəlin Allah'ın Elçisi sizin üçün bağışlanma diləsin!"– deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən. (Münafiqun surəsi, 5)**

Müsəlmanlar qəlblərində xəstəlik olan bu şəxsləri səmimi mömin olmağa dəvət edib onlara Allah'ın ayələrini xatırlatdıqları zaman münafiqlərin göstərdikləri rəftarlardan da qürurlarına təslim olduqları aydın olur. Özlərinin qüsursuzluğuna inanır, insani səhvləri belə özlərinə yaraşdırmırlar. Allah ayələrdə qürurlarına təslim olmalarının nəticəsindən belə bəhs edir:

**Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

Münafiqlər qürurlu olduqları üçün möminləri də özlərindən aşağı görürlər. Sahib olduqları hər hansı bir xüsusiyyət - zənginlik, şöhrət, mövqe, gözəllik onları qürurlandırır və bu xüsusiyyətə sahib olmayan bir mömini özlərindən aşağı görürlər. Halbuki, üstünlük ancaq təqva ilədir. Möminlər bu cür dünyəvi meyarlara önəm vermir, insanları pul, şöhrət, fiziki gözəllik kimi xüsusiyyətlərə görə deyil, imanlarına görə sevib hörmət edirlər. Bu səbəbdən, bu cür xüsusiyyətlərinə görə qürurlanan şəxslər mömin birliyi içində dərhal sezilir və alçalırlar.

## QƏLBLƏRİNDƏ OLMAYANI SÖYLƏYİRLƏR

Münafiqlərin başqa bir xüsusiyyəti yalan danışmalarıdır. Allah'dan qorxmadıqları üçün çətinə düşdükləri vəziyyətlərdə dərhal yalana əl atır və beləcə, möminləri aldada biləcəklərini zənnedirlər. Yalanla özlərinə verilən məsuliyyətlərdən qaçmağa çalışırlar. Quranda Peyğəmbərimiz (s.ə.v) dövründə düşmənə qarşı müdafiə etmək üçün çağırılan münafiqlərin yalana əl ataraq qaçmağa çalışdıqlarına belə diqqət çəkilmişdir:

**İki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allah'ın izni ilə oldu ki, mömінləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud müdafiədə durun!"– deyildi. Onlar: "Döyüşə bilsəydik, sizin ardınızca gedərdik", – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki, Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Ali-İmran surəsi, 166-167)**

Göründüyü kimi, münafiqlər, çətinlik anlarında mömінləri tərk edərək öz mənfəətlərini qoruyurlar. Ancaq bunu da həmişə olduğu kimi ikiüzlülüklərini davam etdirərək, yəni özlərini haqlı göstərməyə çalışaraq edirlər. Əlbəttə ki, uzaqlaşarkən mənfəətlərinin zədələnməsindən qorxduqlarını demirlər, bunun yerinə ağılsız bəhanələr qarşıya qoyaraq mömінləri haqlı olduqlarına inandırmağa çalışırlar. Allah Quranda münafiqlərin bu davranışlarını belə xəbər vermişdir:

**Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi yayındırdı. (Allah'dan) bizim üçün bağışlanma dilə!"– deyəcəklər. Onlar qəlbində olmayanları dilləri ilə**

**deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır. (Fəth surəsi, 11)**

## YAXŞILIĞA MANE OLUR, PİSLİK ETMƏK ÜÇÜN YARIŞIRLAR

Möminlərin əsas xüsusiyyətlərindən biri yaxşılığı əmr edib, pislikdən çəkindirməkdir. Yəni bir mömin insanları əlindən gəldiyi qədər yaxşılığa, Quran əxlaqına çağıracaq və mümkün olduğu qədər pisliklərə mane olmağa çalışacaq.

Münafiqlərin rəftarı isə bunun tam əksidir. Dinin və möminlərin faydasına olan fəaliyyətlərə mane olmağa çalışırlar. Müsəlmanların lehinə nəticələnəcək olan hadisələrdən narahat olurlar. Eqoist istək və həvəsləri yönündəki hər hərəkəti çəkinmədən edirlər. Müsəlmanlara zərər verəcəyini, onları çətinliyə salacağını düşündükləri hərəkətlərə dəstək olurlar. Ayədə belə buyurulur:

**Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allah'ı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar. (Tövbə surəsi, 67)**

## NANKORDURLAR

Münafiqlər digər bütün inkarçılar kimi Allah'a qarşı nankordurlar. Özlərini yaradan və müxtəlif nemətlərlə yaşadan Allah'a nankorluq edir, Onun hökmlərindən üz çevirirlər.

İkinci bir nankorluqları isə möminlərə qarşıdır. Çünki möminlərin arasına qatıldıqda, möminlər onlara kömək etmişdir. Möminlər onları imana çağırmış, onların axirətini qurtarmağa çalışmışlar. Onlara verdikləri nəsihətlər, etdikləri xəbərdarlıq və xatırlatmalar onların yaxşı olmalarını istədikləri üçündür.

Bunun qarşılığında münafiqlərin rəftarı isə möminlərə düşmənçilik bəsləməkdən başqa bir şey deyil. Əlbəttə, bu, böyük bir nankorluqdur və Quranda münafiqlərin bu nankorluqları belə izah edilir:

**Allah'a and içirlər ki, (nalayiq sözlər) deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar. Onların intiqam almağı yalnız Allah'ın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də acılı-ağrılı bir əzaba düçar edər. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır. (Tövbə surəsi, 74)**

**Onların bağışlanması üçün dua etsən də, etməsən də, (hətta) onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allah'ı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları hidayət yoluna yönəltməz. (Tövbə surəsi, 80)**

# Quranda bəhs edilən İrəm şəhəri

1990-cı illərin əvvəllərində dünyanın tanınmış qəzetləri çox mühüm bir arxeoloji qazıntıya "Möhtəşəm ərəb şəhəri tapıldı", "Əfsanəvi ərəb şəhəri tapıldı", "Qumluqların Atlantidası - Ubar" başlıqları ilə geniş yer ayırdılar. Bu maraqlı arxeoloji tapıntının əhəmiyyətini xeyli artıran cəhət isə həmin şəhərin adının Quranda çəkilməsi idi. O vaxta qədər isə Quranda haqqında bəhs edilən Ad qövmünün bir əfsanə olduğunu və ya heç vaxt tapılmayacağını fikirləşənlər bu yeni tapıntıdan sonra heyrətə gəldilər. Quranda bəhs edilən həmin şəhəri tapmış şəxs isə həvəskar arxeoloq Nikolas Klapp idi.

İxtisasca ərəbşünas və sənədli filmlər rejissoru olan Nikolas Klapp ərəb tarixi ilə bağlı apardığı tədqiqatlar zamanı ingilis tədqiqatçısı Bertram Tomas tərəfindən 1932-ci ildə yazılan "Arabia Felix" adlı bir kitaba rast gəlmişdi. "Arabia Felix" romalıların Ərəbistan yarımadasının cənubunda olan və dövrümüzdə Yəməni və Omanı əhatə edən bölgəyə verdiyi ad idi. Yunanlar bura "Eudaimon Arabia", orta əsrlərdəki ərəb alimləri isə "əl-Yəmən əs-Səidə" deyirdilər. Bu adların hamısı "şanslı, bəxtli ərəblər" mənasına gəlirdi. Çünki qədim dövrlərdə bu yer Hindistanla Şimali Ərəbistan arasındakı ədviyyat ticarətinin mərkəzi sayılırdı. Bundan başqa, həmin yerdə yaşayan tayfalar nadir tapılan və həmin dövrlərdə qızıl dəyərində olan "kəhribar" adlı bir bitkini yığır və onun satışı ilə məşğul olurdular.

Öz kitabında bu məlumatlara geniş yer ayıran ingilis tədqiqatçısı Bertram Tomas Ad qövmünün yaşadığı Ubar şəhərinin qalıqlarının olduğu bölgəyə bir elmi ekspedisiya təşkil etmişdi. Bu vaxt səhrada yaşayan bədəvilər B.Tomasa Omanın sahilə yaxın bir yerində həmin bölgədə qədim bir cığırın olduğunu göstərmiş və cığırın Ubar adlı çox qədim bir şəhərə aid olduğunu bildirmişdilər.

Ubarda aparılan arxeoloji qazıntılarda Quranda haqqında bildirilən çoxlu sənət abidələri və yüksək mədəniyyət əsərləri tapılmışdı. İngilis tədqiqatçısı Ubarın mövcudluğunu sübut etmək üçün iki ayrı üsuldan istifadə etdi. Əvvəlcə, mövcudluğu bədəvilər tərəfindən bildirilən cığırın izlərini tapdı. NASA-ya müraciət edərək bu bölgənin peyk vasitəsi ilə çəkilməsini xahiş etdi. Bundan sonra da Kaliforniyanın Hantinqton Kitabxanasında saxlanılan qədim



kitabə və xəritələri tədqiq etməyə başladı. Qısa araşdırmadan sonra Misir-yunan coğrafiyaşünası Ptolemey tərəfindən bizim eranın 200-cü ilində çəkilmiş bir xəritəni aşkara çıxardı. Xəritədə bölgədə olan qədim bir şəhərin yeri və bu şəhərə tərəf gedən yollar göstərilmişdi. Bu vaxt NASA-nın çəkdiyi şəkillərdə yerdən adi gözlə görünməsi mümkün olmayan, ancaq havadan bir bütöv şəkildə görünən bəzi yol izləri ortaya çıxmışdı. Həm qədim xəritədə təsvir olunan yollar, həm də peykdən çəkilmiş şəkillərdən görünən yollar bir-biri ilə üst-üstə düşüb kəsişirdi. Bu yolların qurtardığı yer isə qədimdə bir şəhər olduğu bilinən geniş bir sahə idi.

Beləliklə, bədəvilərin şifahi olaraq bəhs etdikləri hekayələrə mövzu olan əfsanə şəhərin yeri tapıldı. Qazıntılar nəticəsində qumların içindən bir şəhərin qalıqları çıxmağa başladı. Buna görə də bu itmiş şəhər "Qumluqların Atlantidası - Ubar" şəklində adlandırıldı.

Bu qədim şəhərin Quranda haqqında bəhs edilən Ad qövmünün şəhəri olmasını sübut edən əsl dəlil isə şəhərin qalıqları idi. Bu dağılmış şəhərin Quranda haqqında bəhs edilən Ad qövmü və İrəmin sütunları olması faktı dağıntıların ilk aşkarlanmasından etibarən təsdiqlənmişdi. Çünki qazıntılarda ortaya çıxarılan abidələr arasında Quranda mövcudluğuna diqqət çəkilən uzun sütunlar da yer alırdı. Qazıntını aparan qrupdan dr. Zarins də bu şəhəri başqa arxeoloji tapıntılardan fərqləndirən cəhətin yüksək sütunlar amili ilə bağlı olmasını və dolayısilə, bu şəhərin Quranda haqqında bəhs edilən Ad qövmünün şəhəri olan İrəm olduğunu bildirirdi.

## Quranda İrəmdən belə bəhs edilir:

**"Məgər görmürsənmi ki, Rəbbin nələr etdi Ada (Ad qövmünə)?! Sütunlar sahibi İrəmə?! Məmləkətlər arasında onun kimisi yaradılmamışdı". (Fəcr surəsi, 6-8)**

Göründüyü kimi, Quranda keçmişlə əlaqədar verilən məlumatların tarixi faktlarla bu cür uyğunluq təşkil etməsi və öz təsdiqini tapması Quranın Allah`ın kəlamı olduğunun başqa bir sübutudur.





# Şeytanın əmri: DÜŞÜNMƏYİN

Düşünmək qabiliyyəti insana dünya həyatında verilən ən böyük nemətlərdən biridir. Çünki insan düşünərək Allah'ın sonsuz gücünü, kainatdakı qüsursuz sənətini qavrayır. Düşünən insan dünyada olan hər xırdalığın bir çox hikmətlə yaradıldığını, ölümün yaxın olduğunu və dünya həyatında yerinə yetirməli olan vəzifələri olduğunu qavrayır. Quranda bir çox ayədə yalnız düşünən insanların öyüd ala biləcəyi, Allah'ın varlığının dəlillərini ancaq onların görəcəklərini bildirmişdir. Quranın nazil olma məqsədi **"Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də ibrət alsınlar! " (Sad surəsi, 29)** ayəsində xəbər verildiyi kimi, insanların ayələr üzərində dərin düşünmələridir.



Lakin insanların böyük hissəsi düşünməyi çətinlik olaraq qəbul edir. Hətta bu insanlar düşünməyin həyatlarına və rahatlıqlarına zərər verəcəyinə inanırlar. Bu anlayışa görə, zərərlərin ən mühümü insana dünya həyatlarındakı vəzifələrini xatırlatmaq, düşdükləri qəflətdən onları çıxartmaqdır. Çünki düşünməmək insanı zehni tamamilə boş qoyan bir növ yuxuya sürükləyir. Bu yuxu, adətən, sehr kimi insana bütün vəzifələrini, nə üçün var olduğunu, həyatdakı məqsədini, bir gün öləcəyini unutdurur. Bu yuxunun başqa növü isə dünya həyatının gündəlik və təkrarlanan işlərinə özünü verməkdir. Bəlkə, bu insanlar gün ərzində bir çox şey düşünür, qərar verir və ya həll yolları tapmış kimi görünə bilirlər, əslində isə düşündükləri şeylər gündəlik qaç-qovlarından başqa bir şey deyil. Bu düşüncələrin heç biri insanın yaradılış məqsədi, dünya həyatının gəlib-keçici olduğu və hər canlının bir gün torpaq olacağı ilə bağlı deyil. Əzbərlənmiş, öyrədilmiş, qəlibləşmiş, vərdiş edilmiş hərəkətlər, danışıqlar və davranışlar belə insanların bütün həyatını o qədər bürüyür ki, əsl həqiqətlər üzərində düşünməyi lazımsız bilir.



Bu insanlar özləri düşünməkdən qaçdıqları kimi, başqalarının etdikləri xatırlatmalardan da qətiyyətlə qaçırlar. Allah'a iman etmələri, Onun rizası üçün yaşamaları və Quran ayələri üzərində düşünmələri üçün edilən çağırışlardan üz çevirirlər.



Lakin dünyadakı hər şey və hər varlıq məqsədyönlü şəkildə yaradılmışdır. Allah kainatdakı hər şeyi insanların düşünmələri üçün yaratmışdır. Allah Quran ayələrində yeri, göyü və ikisi arasındakıları kimin daha gözəl davranacağını sınamaq üçün yaratdığını bildirmişdir. İnsan qısa dünya həyatı ərzində bütün etdikləri ilə sınanır. Onu yaradan və ölümündən sonra yenidən diriłdən, haqq-hesaba çəkən Allah qarşısında böyük məsuliyyət daşıyır. Quranı oxumaq, dinləmək, ayələr üzərində düşünmək və anlayıb tətbiq etmək də hər bir insanın ən öndə gələn vəzifələrindən biridir. Allah bu həqiqətə **"Məgər kəlam haqqında düşünüb daşınmırlarmı? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi?" (Muminun surəsi, 68)** ayəsi ilə diqqət yetirir.



Düşünən insan kainatdakı bu qədər incə nizamın və qüsursuz dizayn nümunələrinin təsadüfən meydana gəlməyəcəyinə, var olan hər şeyin yaradıcısı olduğuna qərar verəcək. Ətrafındakı yaradılış möcüzələrini çox dərindən düşündükcə Allah'ın varlığının dəlillərini, Onun yaratdığı hadisələrdə hikmətləri görərək Allah'a təslim olacaq və yalnız Onun rizasını qazanmaq üçün yaşayacaqdır. Bu həqiqətin fərqində olan şeytan insanların qəflət içində ömür sürmələrini, Allah'ın ayələrindən uzaqlaş-malarını, bunun üçün də düşünməmələrini istəyir. Allah şeytanın bu hədəfini bir ayədə belə bildirir:

**"... Mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm..." (Əraf surəsi, 16-17)**



Şeytan bu son hədəfinə çatmaq üçün insanları qəflətdə saxlayacaq xüsusi şəraitlər hazırlayır. Bunun üçün insanların zəif xüsusiyyətlərindən istifadə edərək planlar qurur, ssenarilər yazır və bunları insanların nəfslərinin ən çox məmnun olacağı, ən çox zövq alacağı vəziyyətə gətirməyə çalışır. Din əxlaqından uzaq insanlar da belə mühitlərdə iman edən insanların əksinə Allah'ı unudaraq, axirəti heç düşünməyərək qəflət içində olurlar.

Məsələn, əyləncə yerləri şeytanın bu incə planını asanlıqla tətbiq etdiyi məkanlardır. Çünki din əxlaqına tabe olmayan insanlar buna bənzər yerlərdə heç bir şey düşünmədən, boş zehinlə vaxt keçirirlər. Bu məkanlarda ən dəyər verilən şeylər geyilən geyim, taxılan bəzək



əşyaları, xərclənən pul və ətrafdakı insanlardır. Heç kimin bir-birini eşidə bilmədiyi yüksək səsli musiqi, dumandan insanların bir-birini görə bilmədiyi tüstülü hava, partlayan fişənglər, yüksək səsli danışıqlar və qışqırtılar bir yerə yığılınca Allah qorxusu olmayan insanların diqqətini əsla toplaya bilməyəcəyi və düşünə bilməyəcəyi mühit tamamlanmış olur.

Əlbəttə, insanların əylənmələri, şad olmaları, söhbətindən xoşları gələn insanlarla bir yerdə olmaları gözəl nemətlərdir. Lakin burada nəzərdə tutulan axirətin unudulduğu, Allah'ın adının anılmadığı mühitlərdir. Yaradılış məqsədini tamamilə unutmuş, Allah qorxusunu qəlbində hiss etməyən, əylənmək üçün deyil, buradakı qafil şəraitə düşmək üçün vaxtını belə yerlərdə keçirən insanların nə xəbərdarlıqları düşünəcək, nə də anlayacaq halları qalar. Onsuz da belə insanların bu cür məkanları seçmələrindəki səbəblərdən biri də hər şeyi unutmaq və düşünməməkdir ki, bunu da tez-tez dilə gətirirlər. Belə məkanlara, öz ifadələri ilə, fikrini dağıtmaq üçün gələn insan on dəqiqə əvvəl ağlı başında davranarkən bir anda hər cür lazımsız hərəkətləri normal görməyə başlayır. Yenə öz ifadələri ilə çılğıncasına əylənmək üçün hər cür əxlaqsızlığı məqbul qarşılayır, baş verənlərə qarşı laqeyd olur.



Belə mühitlərdə Allah qorxusu hiss etməyən insanların zehinlərindən faydalı düşüncənin keçməsi demək olar ki, mümkün deyil.

Beləliklə, şeytan "düşünməyin!" əmrinə insanların itaət etmələrini təmin etmiş olur. Allah **"Onlardan kimi bacarırsansa, səsinlə yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol, onlara cürbəcür vədlər ver..." (İsra surəsi, 64)** ayəsi ilə də şeytanın bu üsuluna diqqət çəkir.

İnsanların dərin qəflət içində yaşadıqları bu həyat hal-hazırda yalnız əyləncə məkanları ilə məhdud deyil. Səs-küylə, lazımsız hərəkətlərlə insanların Allah'ın ayələrini düşünməkdən uzaqlaşdırıldıqları hər mühit şeytanın yuxarıda bəhs etdiyimiz planının bir hissəsidir. Futbol oyunlarında tribunaları, konsertlər zamanı stadionları dolduran izdihamların meydana gətirdiyi və buna bənzər mühitlərdə şeytan eyni üsullarla bəzi insanları düşünməkdən uzaqlaşdırır. Bir çox insan belə yerlərə əylənmək, yarışı izləmək və ya gözəl səs dinləmək üçün deyil, insanlara qışqırmaq, dava etmək, qısacası, hər cür çirkin hərəkəti etmək üçün gəlir. Üstəlik, belə yerlərdə bir iki nəfər deyil, minlərlə, on minlərlə izdiham, hamısı bir-birilərinə təsir edə bilir və hamısı qafil vəziyyətə düşə bilir.



Belə mühitdə bir çox insan Allah'ın onu hər tərəfdən əhatə etdiyini, hər an ölüm mələkləri ilə qarşılaşa biləcəyini ağlına gətirmir.



Buna bənzər məkanları qəflətə qapılmaq üçün fürsət bilən və həqiqətlərdən qaçan insan ölüm mələklərini heç gözləmədiyi anda qarşısında gördüyü zaman artıq hər şey üçün çox gec olacaq. Çünki insan dünya həyatını boş əməllərin arxasında keçirmiş və Quran ayələrini düşünməkdən qətiyyətlə qaçmışdır. Düşünməmək üçün müxtəlif üsulları sınamış, şeytanın oyunlarına aldanmışdır. Halbuki, ölümü, həyatın keçici olduğunu, Allah'a qarşı vəzifələrini düşünən insanın belə qafil vəziyyəti qəbul etməsi mümkün deyildir. Allah'ın hər an canını ala biləcəyini və ağzından çıxan hər söz, ağlından keçən hər düşüncə və etdiyi hər hərəkətdən hesaba çəkiləcəyini bilən insan hansı mühitdə olacağından asılı olmayaraq bu həqiqətləri ağlından çıxarmaz və qəflətə qapılmaz.



Unudulmamalıdır ki, bir məkanda Quran əxlaqına uyğun əylənmək yerinə, ədəbsizlik edən, o ədəbsizliklərə təşviq edənlərə ölüm eyni yaxınlıqdadır. Bəlkə, o insan bayıra çıxan kimi ölüm mələkləri ilə qarşılaşacaq, heç gözləmədiyi bir anda özünü Allah'ın qarşısında hesab verərkən görəcək.

Deməli, ölüm insana bu qədər yaxın olduğu halda, insanın qəflət içində həyatına davam etməsi əyləci qopmuş yük maşınının sürətlə üstünə gəldiyini, çırpılıb onu öldürəcəyini bildiyi halda, imkanı var ikən önündən çəkilməməsinə bənzəyir. İnsan həyatı boyu istərsə yüzlərlə, minlərlə ədəbsizlik etsin, hətta bütün həyatını bu cür keçirmiş olsun, ölüm mələkləri canını alarkən bütün yaşadıqlarını geridə qoyacaqdır. Əgər insan vaxtını Allah'ın varlığından qəflət içində keçirmişsə, o gün cahil cəmiyyətlərində "dünyanı doya-doya, yaşamaq" şəklində ifadə edilən bu həyatın ona itkidən başqa bir şey gətirmədiyinin fərqinə varacaq. Rəbbimizi və hesab gününü unutduğu üçün etdiyi hər cür lazımsız hərəkətlərin peşmanlığını hiss edəcək. Allah Quranda inkarçıların qəflətdə olduqları zaman onlara edilən xəbərdarlıqlara verdikləri reaksiyaları belə bildirir:



**İnsanların haqq-hesab vaxtı yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və üz döndərirlər. Rəbbindən onlara elə bir yeni xəbərdarlıq gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər; qəlbləri qəflət içində olaraq... (Ənbiya surəsi, 1-3)**

# Dəyərli qida mənbəyi

**«Dəniz ovu və onu yemək sizə də, səfərdə olanlara da faydalı olsun deyə halal edildi...» (Maidə surəsi, 96)**

Ürək xəstəliyindən əziyyət çəkən və buna görə vəfat edən insanların orta yaş həddinin getdikcə aşağı düşməsi ürək xəstəliyinə diqqəti də artırıb. Müasir təbabətdə ürək xəstəliklərinin müalicəsi məsələsində irəliləyiş və inkişaf olsa da, mütəxəssislər bu xəstəliyə məruz qalmazdan əvvəl görülən tədbirləri dəqiqliklə yerinə yetirməyi tövsiyə edirlər. Mütəxəssislər ürəyin sağlam fəaliyyətini təmin edilməsində və xəstəliyin qarşısının alınmasında vacib olan bir qidanı tövsiyə edirlər. Bu qida balıqdır.

Balığın çox vacib bir qida olmasının səbəbi onun özündə həm insan bədəni üçün zəruri olan maddələri ehtiva etməsi, həm də bədəni müxtəlif xəstəlik risklərindən mümkün qədər uzaqlaşdıracaq xüsusiyyətə malik olmasıdır. Məsələn, məlum olub ki, balıq ətinin tərkibindəki omeqa-3 turşusu bədənin sağlamlığı üçün sanki bir qalxan vəzifəsini yerinə yetirir. O da bəlli olub ki, davamlı olaraq balıq yedikdə ürək xəstəlikləri riski azalır və immunitet sistemi güclənir.

Elmi yolla daha son dövrlərdə sübut edilən balığın faydaları və onun zəruri bir qida mənbəyi olması təxminən 1400 il əvvəl göndərilən Quranda da bildirilir. Uca Allah Quranda dəniz məhsullarını **«Təzə ət yeməyiniz üçün dənizi də sizə ram edən Odur...» (Nəhl surəsi, 14), «Dəniz ovu və onu yemək sizə də, səfərdə olanlara da faydalı olsun deyə halal edildi...» (Maidə surəsi, 96)** ayələri ilə xəbər verir. Bundan əlavə, «Kəhf» surəsində də balığa xüsusi diqqət çəkilir. Bu surədə hz. Musanın və onun gənc köməkçisinin uzun bir səfərə çıxdığı və özləri ilə də qida kimi balıq götürdüyü bildirilir:

**«Onlar iki dənizin qovuşduğu yerə gəlib çatdıqda balığı unutdular. Balıq isə dənizdə bir yarğana tərəf üz tutmuşdu. Onlar (çatmalı olduqları yerdən) keçib getdikləri zaman (Musa) gənc dostuna dedi: "Nahar yeməyimizi gətir. Bu səfərimiz bizi lap əldən saldı!" O isə: "Görürsənmi, biz qayanın yanında gizləndiyimiz zaman mən balığı unutdum...» (Kəhf surəsi, 61-63)**

Rəbbimizin bizə böyük bir neməti olan balığın əti xüsusilə zülal, D vitamini və əksər elementlər (bədəndə çox az miqdarda mövcud olan, lakin bədən üçün çox vacib olan bəzi elementlər) baxımından mükəmməl qida mənbəyidir. Onun tərkibində olan fosfor, kükürd, vanadium kimi minerallar sayəsində böyümə və toxumaların yaxşılaşması təmin edilir. Balıq ətindəki bu maddələr sağlam diş ətinin və



# BALIQ



diş quruluşunun yaranmasına kömək edir, dərinin rəngini gözəlləşdirir, saçların daha sağlam olmasını təmin edir, bakterioloji infeksiyalarla mübarizəyə dəstək verir. Bundan əlavə, həmin maddələr qandakı xolesterol balansının tənzimləyici təsirləri ilə infarktın qarşısının alınmasında mühüm rol oynayırlar. Bu maddələr nişasta və piyin parçalanaraq onların orqanizm tərəfindən mənimsənilməsinə yardımçı olur, beləliklə, daha enerjili və daha güclü qalmağı təmin edirlər. Digər tərəfdən, balıq ətində olan maddələr zehni fəaliyyətin nizamlı olmasına müsbət təsir göstərir. Onun tərkibindəki D vitamini və başqa minerallar kifayət qədər qəbul edilmədikdə isə raxitlik, sümük boşluğu, diş əti xəstəlikləri, zob, hipertiroit kimi problemlər ortaya çıxa bilər.

Bunlardan əlavə, müasir tibbi biliklər balığın tərkibində omeqa-3 yağ turşularının sağlamlıq baxımından çox əhəmiyyətli olduğunu sübut edib. Hətta bu yağlar zəruri yağ turşuları (EFA: essential fatty acid) kimi müəyyənləşdirilir.

## Balıq yağındakı omeqa-3 turşusunun faydası

Balıq yağında sağlamlığımız üçün xüsusilə çox əhəmiyyətli olan iki fərqli doymamış yağ turşusu növü var: EPA (eicosapentaenoic acid) və DHA (docosahexaenoic acid). EPA və DHA doymamış yağlar kimi tanınır və özündə vacib omeqa-3 yağ turşularını ehtiva edir. İnsan bədəni omeqa-3 və omeqa-6 yağ turşularını yarada bilməz, yəni onlar kənardan qidalarla qəbul edilməlidir.

Balıq yağı özündə omeqa-3 yağ turşularını ehtiva etdiyi üçün onun sağlamlığa faydası haqqında daha çox dəlil var. Omeqa-3 bitki yağlarında olsa da, o, sağlamlığı qorumaqda daha az təsirə malikdir. Bunun əksinə olaraq, dəniz planktonları omeqa-3 yağ turşusunun EPA və DHA-ya çevrilməsində çox böyük təsirə malikdir. Balıqlar bu planktonları yeyəndə EPA və DHA baxımından zənginləşirlər. Buna görə də balıq insan bədəni üçün çox əhəmiyyət kəsb edən bu yağ turşularının olması baxımından ən zəngin qidalardan hesab edilir.



## Ürək-damar sisteminin sağlamlığında balığın əhəmiyyəti

Balığın tərkibində olan omeqa-3 yağ turşusu qandakı xolesterolu, triqliseridi və qan təzyiqini aşağı salır. Bu turşu ürəyin sağlam fəaliyyətini təmin etməsi ilə məşhurdur. Triqliserid yağın bir növüdür, tərkibindəki bol yağ və az zülal baxımından LDL-yə (pis xolesterola) oxşayır. Triqliseridin səviyyəsinin artması xüsusilə xolestrolun səviyyəsi yüksələndə ürək xəstəliyi riskini çoxaldır. Balıq yağları infarktdan sonra anormal ürək döyüntülərini, həyatı təhdid edən riskləri də azaldır.

ABŞ-ın Tibb Birliyinin apardığı bir araşdırma göstərib ki, həftədə 5 porsiya balıq yeyən qadınlarda infarkt keçirmə nisbəti 1/3 qədər azalır. Bunun balıq yağında olan omeqa-3 yağ turşularının qanın daha az laxtalanmasına səbəb olmasından qaynaqlandığı güman edilir. Qanın damarlarımızda adi sürəti saatda 60 km-dir və qanın kifayət qədər duruluğu, onun axınının, miqdarının, sürətinin normal səviyyədə olması həyati əhəmiyyət kəsb edir. Qanımız üçün ən böyük təhlükə - qanaxma kimi zəruri vəziyyətlər istisna olmaqla - laxtanaraq duruluğunun azalmasıdır. Balıq yağları qandakı trombositlərin (bədəndə qanaxma olanda qanı intensivləşdirən qan lövhəcikləri) bir-birinə yapışmasına mane olaraq qanın laxtalanmasını azaltmaqda da təsirlidir. Əks halda, qanın qatılaşması damarların daralmasına səbəb olur. Bu vəziyyət də başda ürək, beyin, göz və böyrək olmaqla, bədəndəki bir çox orqanların qanla kifayət qədər yaxşı qidalanmamasına, ləng çalışmasına və tədricən fəaliyyətini itirməsinə gətirib çıxarır. Məsələn, aorta qan damarının laxtalanması nəticəsində damarların tıxanması infarkt, iflic və ya başqa xəstəliklərin yaranmasına gətirib çıxara bilər.

Omeqa-3 yağ turşuları eritrositlərin (qırmızı qan hüceyrələri) daxilində oksigen daşıyan hemoqlobin molekulunun istehsalında və hüceyrə qılafından keçən qidalara nəzarət edilməsində də mühüm rol oynayır və bədən üçün ziyanlı yağların zərərinin qarşısını alır. Araşdırmalar balıqdakı omeqa-3 yağ turşularının infarkt riskini azaltdığını sübut edib.

## Balığın yeni doğulan uşaqların inkişafında rolu

Omeqa-3 yağ turşuları insan beyninin və retinasının əhəmiyyətli bir tərkibi olduğu üçün, xüsusilə təzə doğulan uşaqların ehtiyacı ilə bağlı ötən

10 ildə mühüm tədqiqatların mövzusu olub. Omeqa-3 xüsusilə hamiləlik dövrü boyunca və uşaqlıq dövrünün başlanğıcında beyin və sinirlərin uyğun şəkildə inkişafı baxımından çox əhəmiyyətlidir. Ana südü də təbii və mükəmməl bir omeqa-3 anbarı olduğuna görə, alimlər ana südünün vacibliyini xüsusi vurğulayırlar.

## Oynaqların sağlamlığına faydası

Revmatizm artrit xəstəliyində (revmatizmlə bağlı oynaq infeksiyası) ən əhəmiyyətli risk oynaqlarda yaranan aşınmanın qarşısıalınmaz bir təxribata səbəb olmasıdır. Omeqa-3 yağ turşusu baxımından zəngin bir qidalanmanın artritin yaranmasına mane olduğu, şişən və həssas oynaqlarda narahatlığın da yüngülləşdiyi sübut olunmuşdur.

Omeqa-3 yağ turşusunun beyin və sinir sisteminin sağlam şəkildə fəaliyyət göstərməsində təsirləri bir çox tədqiqatlar nəticəsində təsdiq edilib. Həmçinin sübut edilib ki, balıq yağının qəbul edilməsi depressiya və şizofreniya əlamətlərini yüngülləşdirir, Altshaymer xəstəliyinin (yaddaşın zəifləməsinə səbəb olan, gündəlik yaşayış aktivliyinə mane olan bir beyin xəstəliyi) qarşısını alır. Məsələn, depressiyaya məruz qalan və 12 həftə ərzində 1 qram omeqa-3 yağ turşusu qəbul edən adamlarda gərginlik, narahatlıq, kədər və yuxu problemləri kimi əlamətlərin azaldığı sübut olunub.

Yüksək səviyyədə omeqa-3 yağ turşusuna malik balıqla qidalanan Qrenlandiya eskimoslarının və yaponların ürək-damar, astma və psoriaz xəstəliklərinə daha az məruz qaldığını göstərən çox əhatəli məlumatlar var. Buna görə də balıq müalicəvi bir qida kimi də tövsiyə edilir. Omeqa-3 yağ turşuları ürək xəstəliyi üçün sübut edilmiş faydaları ilə müasir dövrümüzdə də qidalanma üzrə mütəxəssislərin tövsiyə etdiyi əsas maddələrdən biri kimi hesab edilir.

Balığın ümumi şəkildə göstərdiyimiz faydalı cəhətlərinə hər ötən gün yeniləri əlavə olunur. Balığın faydalarını ortaya çıxarmaq alimlərin inkişaf etmiş texnoloji imkanlarla təchiz olunmuş tədqiqat mərkəzlərindən istifadə etməsi ilə mümkün olub. Bu cür dəyərli qida mənbəyinə Quranda işarə edilməsi və «Kəhf» surəsində yorğunluğu aradan qaldıran bir qida kimi təqdim olunması da, əlbəttə, çox hikmətlidir. Balıqdan əldə edilən bütün faydalar Rəbbimizin bizə verdiyi böyük nemətdir. Bütün qidalarda olduğu kimi, balıqdakı üstün quruluşu da bizim üçün yaradan aləmlərin Rəbbi olan Allah`dır.





# Allah'a necə yaxın

**• Allah'a necə yaxın ola bilərik?**
**• Uca Rəbbimizə yaxın olmaq hər bir müsəlmanın ən böyük arzusudur. Ancaq bunun üçün gün ərzində diqqət edilməli mövzular var.**
**• Uca Allah'a yaxın olmaq üçün nə etmək lazımdır?**
**• Allah'a yaxın olmaq üçün hansı düşüncəyə sahib olmaq lazımdır?**

İnsanlar adətən güclü olanın yanında olmaq istəyirlər. Bununla, həm digər insanlar tərəfindən etibar görəcəklərini, həm də güclü insanın onları qoruyacağını düşünürlər. Əslində, insanın güclünün yanında olmaq istəyi yaradılışından qaynaqlanan bir xüsusiyyətdir. Buna görə də, insan bütün həyatı boyu güclü olanı axtarar, lakin heç vaxt axtardığı gücü tapa bilməz. İnsanları yanıldan da budur. Çünki onlar əsl qaynağına yaxın olmaq əvəzinə, Onun təcəllilərinə sığınır və özləri kimi bir qul olan varlıqlardan kömək istəyirlər. Halbuki, gücün əsl qaynağı bütün varlıq aləminin tək sahibi uca Allah'dır. Uca Allah'a yaxın olmağın nəticəsində insanlar həyatları boyu axtardıqları rahatlığı və etibarı qazanırlar. Elə insanın fitrətinə uyğun olan da budur. Bu sirri qavrayan möminlər sadəcə Allah'a güvənir, Onu dost və Vəli edir, özlərini Ona yaxınlaşdıran vəsilələr axtarırlar. Rəbbimiz bir ayəsində qullarına çox yaxın olduğunu belə bildirir:

***Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)***

## Uca Allah'ın sonsuz böyüklüyünü və qüdrətini düşünmək

Uca Allah insanların Onun böyüklüyünü qavramaları üçün kainatdakı nizamı mükəmməl incəliklərlə birlikdə yaratmışdır. Quranda bu həqiqətə ***"Allah'ın hər şeyə qadir olduğunu və Allah'ın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz" (Talaq surəsi, 12)*** ayəsi ilə diqqət çəkilir. Uca Allah'ın ağlı, elmi və qüdrəti sonsuzdur.

Allah sonsuz qüdrətini və elmini mövcud olan hər varlıqda göstərir. İnsan bədəninin hər təfərrüatındakı mükəmməllik, çiçəklərin görünüşündəki rəng, qoxularındakı gözəllik, göy üzünün və kainatın möhtəşəmliyi, planetlərin orbitlərindəki nizam, dənizlərin dərinliklərindəki balıqlar və ağlınıza gələn hər şeydə açıq görünən mükəmməlik və möhtəşəmlik Allah'ın varlığının və sonsuz gücünün açıq dəlillərindəndir. Uca



# ola bilərik?

Rəbbimiz olan Allah'ın sonsuz gücünə və ağlına bir neçə nümunə olaraq aşağıdakıları verək:

- Uca Allah insanın məhdud ağlı ilə anlamaqda çətinlik çəkdiyi və heç bilmədiyi şeyləri yaratmağa qadirdir.
- Dünyada qullarına verdiyi ucu-bucağı olmayan hər şeyin xəzinəsi Onun qatındadır.
- Bəşər tarixinin başlanğıcından bu günə qədər milyardlarla müxtəlif insan tipi, milyardlarla fərqli barmaq izi yaratmışdır və istəyərsə, bu insanlardan sonsuz sayda yarada bilər.
- Uca Allah bizim görmədiyimiz bir çox aləmi və varlığı da yaratmışdır. Məsələn, Quranda bildirilən mələklər və cinlər fərqli aləmlərdə yaşayan varlıqlardır.
- Rəbbimiz sonsuz sayda kainat, sonsuz sayda varlıq, sonsuz sayda məkan yaratmağa qadirdir. Bundan başqa, hər birini çox fərqli xüsusiyyətlərlə yaratmağa qadirdir. Belə ki, axirətdə cənnəti və cəhənnəmi yaradacaqdır. Cənnət və cəhənnəm bizim dünyada bildiyimizdən çox fərqli bir yaradılışda olacaq.

Yuxarıda bir neçə nümunə ilə toxunduğumuz mövzuları möminlər daim düşünür, uca Allah'ı, yaratma sənətindəki üstün ağılı və elmi təfəkkür edirlər. Allah'ın gücünün və böyüklüyünün sərhədsizliyini, hər şeyin Onun diləməsi ilə istədiyi zaman reallaşdığını qavramağa çalışırlar.

Uca Allah'ın elminin sonsuzluğunu düşünmək və Onun qədrini haqqı ilə təqdir etməyə çalışmaq möminləri Allah'a yaxınlaşdıran vacib ibadətdir. Quranda Rəbbimizin sonsuz gücü belə xəbər verilir:

***Allah, Ondan başqa ilah yoxdur, (əbədi) yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)***



Düşünən İnsan, Avqust 2013

### "Xəbərdar edib-qorxudan" Quran ayələri haqqında düşünmək

***Alçaq hiylələrə əl atanlar Allah'ın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən əzabın onlara gəlməyəcəyinə əmindirlərmi? (Nəhl surəsi, 45)*** ayəsində diqqət çəkildiyi kimi, uca Allah Quranda bir çox ayədə qullarını xəbərdar edib qorxudur. Bu ayələri oxumaq və üzərində düşünmək isə Rəbbimizin qüdrətini təqdir edən möminləri Allah'a yaxınlaşdırar. Ayələr haqqında düşünən bir mömin Allah'a hörmət dolu qorxu ilə içi titrəyərək bağlanar, Onun sərhədlərini qoruyar. Allah'dan qorxan insan nəfsindəki pislikləri təmizləyər, səbirli, qərarlı, cəsur, gözəl əxlaqlı olar, həqiqi mənada səmimi olaraq iman gətirər və uca Allah'a eşqlə bağlanar. Əlbəttə ki, Allah'a eşqlə və böyük sevgi ilə bağlanan mömin Allah'a çox yaxınlaşar.

### Cəhənnəmi təfəkkür etmək

Uca Allah Quranda səmimi olaraq iman gətirən qullarını cənnətlə müjdələmişdir. Əlbəttə, cənnət ayələrini oxumaq və onlar haqqında düşünmək möminlərə çox böyük bir şövq verir. Ancaq sadəcə cənnəti düşünmək insanı arxayınlığa apara bilər. İnsan "necə olsa, cənnətə gedərəm", "necə olsa, bağışlanaram" kimi sapqın bir düşüncəyə qapıla bilər. Bu düşüncə isə insanın özünü bəyənməsinə, hətta ilah etməsinə səbəb olar və bu, onu uca Allah'dan uzaqlaşdıra bilər. Bu təhlükəyə qarşı peyğəmbərlər belə uca Allah'a müsəlman olaraq canlarının alınması üçün dua ediblər. Hz. Yusifin duası bu baxımdan Quranda nümunə verilir. Hz. Yusuf uca Allah'a belə dua edir:

***Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur". (Yusuf surəsi, 101)***

Möminlərin bu təhlükəyə qarşı özlərini qoruya biləcəkləri ən gözəl davranış cəhənnəmi təfəkkür etməkdir. ***"Onları orada inilti gözləyir. Onlar orada eşitməzlər" (Ənbiya surəsi, 100)*** ayəsində xəbər verildiyi kimi, cəhənnəmdəki sonsuz əzablarla dolu bir mühiti düşünmək insanın içi titrəyərək qorxu duymasına və çəkinməsinə səbəb olar. Cəhənnəmi təfəkkür etmək möminin əxlaqını gözəlləşdirər, ibadətlərini və uca Allah'ın sərhədlərini diqqətlə qorumasına, daima Allah'ın razılığının ən çoxunu güdməsinə və Ona daha çox yaxınlaşmasına səbəb olar.

### Dünya həyatının keçiciliyini və ölümü düşünmək

Dünya həyatında mövcud olan hər şeyin bir gün mütləq xarab olduğunu, köhnəldiyini, hətta yox olduğunu düşünmək insana ölümü, dolayısilə də bir həqiqəti- sonda uca Rəbbimizə qovuşmağı xatırladır. Bu həqiqət Quranda belə bildirilir:

***(Yer) üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Rəhman surəsi, 26-27)***

Bədiüzzaman Səid Nursinin də "Nəsihət istəsən, ölüm yetər. Bəli, ölümü düşünən dünya sevgisindən qurtular və axirətinə ciddi çalışar" sözləri ilə bildirdiyi kimi, ölümü çox düşünmək insanı dünyaya bağlılıqdan uzaqlaşdırıb Rəbbimizə yaxınlaşdıran bir yoldur. Belə ki, dövrünün mücəddidlərindən olan İmam Qəzali də ölümü sevgilini sevgiliyə qovuşduran bir körpü kimi dəyərləndirərək, insanın uca Allah'a yaxınlaşmasında ölümü düşünməyin əhəmiyyətini bir daha xatırladır.

### Diqqət və şüur açıqlığı

Uca Allah'a yaxınlaşmağa səbəb olan vasitələrdən biri də diqqət və şüur açıqlığıdır. İnsan zəif hafizəyə, diqqət dağınıqlığına, qəflətə qapılmağa uyğun yaradılmışdır. İnsan uca Allah'ın imtahan üçün xüsusi olaraq yaratdığı bu vəziyyətdən diqqətini mütəmadi olaraq açıq tutmaqla qurtula bilər. Bunun üçün Rəbbimizin



hər an, hər saniyə bizimlə birlikdə olduğunu, bizi gördüyünü və eşitdiyini, hər işi nizamlayıb nəzarəti altında saxladığını unutmamaq, bütün həyatımızın müəyyən edilmiş bir qədərə görə yaşandığını xatırlamaq, edilən hər işdə, görünən hər görüntüdə Allah'ın sonsuz ağlını, heyranedici sənətini və Onun uca qüdrətini təfəkkür etmək, hər zaman təvəkküllü və təslimiyyətli olmaq, Allah'ı təsbih edib ucaltmaq lazımdır.

İman gətirənlərin gündəlik həyatının hər mərhələsində Allah'ı anma və dua halında olmaları, özlərinə verilən nemətlərə qarşı mütəmadi olaraq içdən şükür etmələri, bilərək və ya bilməyərək etdikləri xətalarından ötrü bağışlanma diləmələri və tez-tez Allah'ın adını ucaltmaları onları uca Allah'ın izni ilə Rəbbimizə dost edəcək, Ona yaxınlaşmalarını təmin edəcək. Bu həqiqət bir Quran ayəsində belə xəbər verilir:

***...Allah'ı zikr etmək, şübhəsiz ki, daha böyükdür…* (Ənkəbut surəsi, 45)**

Uca Allah'ı tanımağın, qavramağın və imanda dərinləşməyin sərhədi yoxdur. Bir insan Allah'a yaxın olmaq və Onu daha yaxşı tanımaq üçün nə qədər çox cəhd edərsə, nə qədər çox düşünərsə, imanı, ağlı və Allah qorxusu da o qədər çox güclənər. Bu səbəblə, Allah yolunda xidmət etmək üçün böyük cəhd edən və Ona yaxınlaşmaq üçün dərin təfəkkür edən möminlər Allah'dan çox qorxan və Allah'a bütün qəlbi ilə bağlı olan insanlardır. Möminlərin Allah'ın hökmlərini tətbiq etmə mövzusunda göstərdikləri diqqət və vicdanlarını dinləmə mövzusunda göstərdikləri həssaslıq onlara, inşaAllah, Rəbbimizin sevgisini, rizasını qazandıracaq və Ona yaxınlaşdıracaq. Uca Rəbbimiz iman gətirənləri zatına yaxınlaşmağa Quranda belə dəvət edir:

***Ey iman gətirənlər! Allah'dan qorxun, Ona vasitə axtarın və Onun yolunda cəhd edin ki, bəlkə nicat tapasınız.* (Maidə surəsi, 35)**

İnsanların əksəriyyəti Allah'ı özlərindən uzaq zənn edirlər. Halbuki, Rəbbimiz ***"… Rəbbin insanları əhatə etmişdir…"* (İsra surəsi, 60)** ayəsində buyurduğu kimi, insanlara çox yaxındır. İnsanın hər vəziyyətini görür, hər danışığını eşidir. Hətta içindən keçən düşüncələri, qəlbindəki sıxıntı və vəsvəsələri bilir. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

***İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq.* (Qaf surəsi, 16)**

İnsan isə Rəbbimizin, əslində, ona çox yaxın olduğunu bilib hər an şükür etməli və Ona çox bağlanmalıdır.





# DÜNYAYA SEVGİNİ ÖYRƏDƏCƏK RƏHBƏR: Həzrəti Mehdi (ə.s)

- Sevgi müəllimi nə deməkdir?
- Bu məsələni gündəmə gətirən cənab Adnan Oktarın sevgi müəllimliyi haqqındakı fikirləri nələrdir?
- Dünyada nə üçün sevgi müəllimინə ehtiyac var?

Son günlərdə başda müsəlman ölkələr olmaqla, bütün dünyada zorakılıq, narahatlıq,

gərginlik və qarışıqlıq geniş yayılıb. Ancaq bütün insanlar gələcəkdə daha rahat, sülh və əmin-amanlıq dolu günlər üçün baş verənlərdən ibrət götürüb dərs çıxarmalıdır.

Bir çox ölkədə baş verən gərginlik sanki bütün xalqları kütləvi şəkildə hipnoz edib. Hipnozda olan bu insanlar nəyə xidmət etdiyini, nəyə fayda vermək istədiyini belə bilmədən və ölkələrinə necə zərər verdiklərini düşünmədən darvinist kommunistlərin tələsinə düşərək qanuni hüquqlarını demokratik şəkildə tələb etmək əvəzinə küçələrə axışıb zorakılıqla, şiddətlə əldə etməyə çalışırlar. Ağılla hərəkət edib milləti qarışıqlığın içindən çəkib çıxarması gözlənilən rəhbərlər isə xalqın istəklərini sevgi ilə, mərhəmətlə qarşılayıb demokratik çərçivədə həll etmək əvəzinə, şiddətlə qarşılıq verərək onlar da hipnoza düşürlər.

Qarşılıqlı edilən bu pis hərəkətlər isə qarışıqlığı, nifrəti, vəhşiliyi, təcavüzkarlığı, insanlıqdan kənar hərəkətləri şüuru örtülmüş şəkildə körükləyir. Bu kütləvi hipnozun təsiri altında olarkən həmin insanlarla danışmaq, təsir etmək də mümkün olmur. Halbuki, hamısı böyük ehtimalla zaman keçdikcə dönüb arxaya baxdıqda edilmiş səhvləri, verdikləri zərəri açıq-aydın görəcəklər.

Bu gün bu hipnozun qarşısını almağın ən qəti həlli sağlamdüşüncəli dünya liderlərinin, siyasi partiya rəhbərlərinin birləşərək insanları sevgi, sülh və İslam qardaşlığına dəvət etmələri, mülayim lider seçərək onun sevgi rəhbərliyi altında toplanmalarıdır. Cəmiyyətdəki gərginliyin sona çatmasının yeganə yolu budur. Xüsusilə keçən əsr dünya çox qaranlıq, sevgidən məhrum illər keçirdi. İnsanların qəlbinə sevgi əvəzinə kin və nifrət yerləşdi. Ancaq bu vəziyyət artıq dəyişir. Dövrümüzdə başlayan mehdiyyət 10 il sonra tam mənada bərqərar olacaq, sevginin, sülhün, qardaşlığın, gözəl əxlaqın hakim olduğu





dövr olacaq. Hz. Mehdinin (ə.s) rəhbərliyi ilə mehdiyyət dövründə Allah`ın Quranda bizdən istədiyi sevgi anlayışı tam mənada təcəlli edəcək. Allah`ın Quranda bildirdiyi kimi, necə ki, Peyğəmbərimiz (s.ə.v) təbliğ edərkən: **"Mən sizdən bunun müqabilində sevgidən başqa bir şey istəmirəm..." (Şura surəsi, 23)** – demişdi. Allah`ın izni ilə, onun nəslindən olan hz. Mehdi (ə.s) də Qurana əsaslanan sevgi və məhəbbətdən başqa heç nə istəməyəcək.

## Dünya liderləri birləşərək mülayim xasiyyətli mənəvi lider - sevgi müəllimi seçməlidirlər

Artıq aydın olub ki, cahil, biliksiz insanlar bir-biri ilə münaqişə etdikdə bu münaqişənin qarşısını alacaq, onları məlumatlandırıb islah edəcək, sakitləşdirəcək və dünyanı cənnətə çevirəcək bir liderə ehtiyac var. Dünyanın qabaqcıl liderləri zorakılığı bəyənmədiklərini ifadə etsələr də, sevgiyə, sülhə dəvət etsələr də, gərginliyin artdığı mühitdə bir siyasətçinin sözü dinlənilmir və problemlər bir dəfəlik həll olunmur. Çünki bir siyasətçinin mütləq onu dəstəkləyən tərəfdarı və qarşı fikirdə olan müxalifi olur. Bu təqdirdə, bütün insanları ortaq düşüncə ətrafında toplayacaq, hər kəsə qucaq açacaq və fikirləri ilə təsir edəcək gücə malik siyasi liderin olması və hər kəs tərəfindən qəbul edilməsi mümkün deyil. İnsanlar üzərində din alimlərinin təsiri də gözlənildiyi kimi güclü deyil. Çünki bu insanların müxtəlif dinlərdən olduqları və ya müxtəlif məzhəblərə mənsub olduqları üçün tərəfdarları və əleyhdarları var. Ona görə, insanlara sevgini öyrədəcək insan dünyadakı siyasi liderlərin hamısından üstün təsir gücü ilə yanaşı, dinlər və məzhəblər arasında da ittifaqla qəbul ediləcək xüsusiyyətlərə malik olmalıdır. Bütün dünyaya sülhü, sevgini öyrədəcək şəxs, hədislərdə bildirildiyi kimi, siyasətdən uzaq

duraraq evindən idarə etməli, vəzifə arzusunda olmamalı və siyasi xadim olmamalıdır.

Bu şəxs Allah yolunda mübarizə apararkən Quranda tərif edildiyi kimi, sadəcə Allah tərəfdarı olmalı, səmimiliyi, düzgünlüyü ilə hər kəs tərəfindən qəbul edilən şəxsiyyət olmalıdır. Bundan əlavə, dünyəvi istəkləri də olmamalıdır. Bu şəxs darvinizm və xurafatın gətirdyi kobudluğu elmi mübarizə apararaq aradan qaldıran, insanları doğru yola çağıran, sevgisizlik və mərhəmətsizlik aşılayan xurafatçı təfəkkürü aradan qaldıran, sevgiyə, dostluğa, mərhəmətə dəvət edən, yaxşılıq və gözəlliklə məzhəbləri ləğv edən, sözü keçən və çox sevilən lider olmalıdır.

Sadalanan xüsusiyyətlərə malik olan insanın axtarılıb tapılması və dünyanın mənəvi lideri olması üçün Amerika başda olmaqla, Türkiyə, İran, Rusiya, İsrail və Avropadan sağlam düşüncəli siyasi xadimlər və din alimləri toplanıb şəfqətli, mərhəmətli, hər kəsi yaxşılığa dəvət edən sevgi müəllimi seçməli, dünyanın bir mənəvi liderin zühuruna möhtac olduğunu anlamalı, yəni sevgi müəllimi axtarmalıdırlar.

**Cənab Adnan Oktar dünya liderlərinin bir sevgi müəllimi seçmələrinin vacibliyindən bəhs edir:**

***«Sağlam düşüncəli dünya liderləri toplansınlar, mülayim lider tapsınlar. Bu kobudluğu aradan qaldıran, insanları gözəlliyə dəvət edən, zorla deyil, doğrunu izah edərək məzhəbləri ləğv edən, sevgidən, dostluqdan, mərhəmətdən, yaxşılıqdan, gözəllikdən bəhs edən, həm də sözü keçən, çox sevilən lider tapsınlar.***

***Dünya liderləri bu məqsədlə toplansın. R. T. Ərdoğan, V. Putin, B. Obama və digərləri toplansınlar, müsəlman aləminin başına lider seçsinlər. Mehriban, hər kəsin sevdiyi, dünyəvi***





*mənfəəti olmayan, hədislərdə bildirildiyi kimi, evindən idarə edən, vəzifə arzusunda olmayan, siyasət adamı deyil, sevgi adamı, sevgi müəllimi tapsınlar. Dünyaya sevgini öyrətsin.*

*Amerika, Türkiyə, İran səmimi yanaşırlar, Suriyanın sağlam düşünən insanları var, bir nəfəri seçib desinlər: "Bu adam, həqiqətən, şəfqətli, mərhəmətlidir, hər kəsi yaxşılığa dəvət edir, onu sevgi müəllimi seçək".*

*Həmin şəxs siyasətçi deyil, sevgi müəllimi olmalıdır. Dünya siyasətinə qarışmayacaq, onu siyasətçilər həll edir. Siyasət siyasətçilərin əlində qalsın, onlar vəzifələrinə davam etsinlər, ancaq bu cür mənəvi liderin zühuruna dünya möhtacdır.Sevgi müəllimi olmaq başqa bir şeydir. Dünya səviyyəsində insanlara sevgini öyrədən sevgi müəllimi seçməlidirlər. Həmin şəxs hz. Mehdidir. Qədərə əsasən, onu seçəcəklər, başqa birini seçə bilməzlər. Onu seçdikdə mən də o şəxsə tabe olacağam. Bütün dünya liderlərinin qəlbinə Allah ilham edəcək, "Ona tabe olun", - deyəcək. Ondan başqasını seçə bilməzlər. Qorxmasınlar, səhv etməzlər. Allah onlara yol göstərəcək...*

*Deyirlər: "Bəs səhvən başqa adama gedib tabe olsaq?" Elə şey olmaz. O, nə deməkdir? Haşa: "Mən Allah`ın iradəsindən kənar hərəkət edirəm", - demək olar. Allah sizə ilham edəcək, Obamaya da, baş nazirimizə də ilham edəcək və edir də. Allah qəlblərinə ilham edir.*

*Mehdiyə tabe olacaqlar, Mehdi də Suriyadakı insanlara səslənəcək: "Şiə qardaşlarım, siz namazlarınızı lazımınca qılırsınız, Allah`a sevginiz də gözəldir, halala-harama diqqət edirsiniz. Sünnilər də namazlarını lazımınca qılırlar, halal-harama diqqət edirlər. Allah`ı çox sevirlər. Arada fərq varmı? Heç bir fərq yoxdur. Elə isə bu ayrı-seçkilik nədir?" Şeytan hər iki tərəfi şirkə sürükləyib. Şirklə onları bir-birlərinə qırdırır. Onları şirkdən*

***çəkindirdikdə, bəlanı təmizlədikdə nur kimi insanlar olacaqlar.*** (Adnan Oktar, 28 may 2013-cü il, A9 TV)»

### Sevgi müəllimliyi nədir?

Sevgi müəllimliyi siyasətdən, məzhəb və ya dini liderlikdən fərqlidir. Ona görə, dünya səviyyəsində insanlara sevgini öyrədən müəllim hz. Mehdidir (ə.s). Allah qədərdə bu dəyərli şəxsin kim olacağını müəyyən etdiyi üçün insanların ondan başqasını seçməsi əsla mümkün deyil. Çünki Allah bütün liderlərin və insanların qəlbinə seçəcəkləri bu mübarək insanın adını ilham edəcək, ona tabe olmağı əmr edəcək və bu insana qarşı qəlblərində sevgi yaradacaq. Peyğəmbərimiz (s.ə.v) hədislərində insanların daima hz. Mehdidən (ə.s) bəhs edəcəklərini, ona böyük sevgi bəsləyəcəklərini belə xəbər vermişdir:

... Hz. Mehdinin (ə.s) sevgisi insanların qəlbinə yerləşəcək və ONDAN BAŞQA HEÇ NƏDƏN BƏHS EDİLMƏYƏCƏK. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)

ALLAH (C.C) BÜTÜN İNSANLARIN QƏLBLƏRİNİ ONUN (HZ. MENDİNİN (Ə.S)) MƏHƏBBƏTİ İLƏ DOLDURACAQ. (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 42)

Mehdi (ə.s) zühur edəcək, HƏR KƏS ANCAQ ONDAN DANIŞACAQ, ONUN SEVGİSİNDƏN İÇƏCƏK VƏ ONDAN BAŞQA HEÇ NƏDƏN BƏHS ETMƏYƏCƏKLƏR. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 33)

Hz. Mehdi (ə.s) gələcək, ONU TƏZƏ GƏLİN KİMİ SEVGİ VƏ MƏHƏBBƏTLƏ QUCAQLAYACAQLAR. (Ali Bin Hüsameddin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden





Hadisler – Ahir Zaman Mehdisinin Alametleri, Kahraman Neşriyat, səh. 35)

O, (HZ. MEHDİ (Ə.S)) MƏXLUQAT ARASINDA SEVİLƏCƏK. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 58)

Qurana əsasən, sevgi müəllimi olan hz. Mehdini (ə.s) gözləmək ibadətdir, fərzdir, xeyir və nemətdir

**... Onlar öz peyğəmbərinə: "Bizə bir hökmdar göndər..." (Bəqərə surəsi, 246)**

**"... Bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" (Nisa surəsi, 75)**

Yuxarıdakı ayələr müsəlmanların Allah`ın onlara mənəvi lider göndərməsi, yəni himayəçi, dostluğu və anlayışlı olmağı öyrədən, davakarlığı aradan qaldıran, sevgini aşılayan, çox sevilən rəhbər- sevgi müəllimi göndərməsi üçün etdikləri dualardandır. Allah bizə hz. Mehdini (ə.s) gözləməyin nemət və ibadət olduğunu, bunun üçün necə dua etməyimizi Quranda ayələrlə açıq-aydın bildirmişdir.

Allah tarixən hər qövmə mənəvi liderlər və sevgi müəllimləri göndərib. Hz. Nuh (ə.s), hz. İbrahim (ə.s), hz. Musa (ə.s), hz. Yusuf (ə.s), hz. İsa (ə.s) və hz. Muhəmməd (s.ə.v) yaşadıqları dövrlərdə iman gətirənlərin rəhbəri və Allah`ın mübarək elçiləri kimi qövmlərinin başında olmuş, onlara yaxşılığı, mərhəməti, dostluğu, sevgini, şəfqəti öyrətmişlər. Yəni hər peyğəmbər, hər elçi dövrünün mənəvi lideri olmuş, insanlara rəhbərlik etmişdir. Axırzamanda da bəşəriyyətin mənəvi lideri və sevgi müəllimi hz. Mehdi (ə.s) olacaq.

Allah hər şeyi bir səbəblə yaradır. Bir gün ərzində baş verən hər hadisəni bir səbəbin nəticəsi olaraq müşahidə edirik. Rəbbimiz

insanların imtahanlarını səbəb-nəticə əlaqəsi üzərində qurmuşdur. Ancaq hər şey qədərdə müəyyən edilib. Yən səbəb də, nəticə də qədərdə yazıldığı üçün var. Hər şey Allah`ın yazdığı kimi olur. Mehdiyyət də Allah`ın qədərdə yaratdığı, ancaq meydana gəlmə səbəblərini insanların yeni anlamağa başladığı həqiqətdir. Yəni Allah`ın izni ilə, mehdiyyətin meydana gəlməsini səbəb və nəticələri ilə müşahidə etməyə başlamışıq. Odur ki, mənəvi lider kimi seçiləcək və İslam əxlaqını yer üzünə son dəfə hakim edəcək sevgi müəllimi hz. Mehdi (ə.s) də Allah`ın qədərdə təyin etdiyi şəxs olacaq.

## Peyğəmbərimiz (s.ə.v) hz. Mehdinin (ə.s) sevgi müəllimi olacağını müjdələmişdir

Hz. Mehdinin (ə.s) ən əsas xüsusiyyətlərindən biri Allah`a və Onun təcəllilərinə bəslədiyi dərin sevgi və məhəbbətdir. Onun bu xüsusiyyəti dünya səviyyəsində insanların bir-birlərini çox sevməsinə səbəb olacaq. Onun vasitəsilə insanların düşüncə tərzi tamamilə dəyişəcək və əsl sevgini öyrənəcəklər. Bu həqiqəti xəbər verən hədislərdən bəziləri aşağıdakılardır:

Hz. Mehdi (ə.s) dövründə Əsri-səadətdə olduğu kimi KÜL OLMUŞ HİSSLƏR BİR-BİR TUMURCUQLANACAQ, ÇİÇƏK AÇACAQLAR. (el-Havi l'il-Fetava, səh. 67, 68; Rahbavi, Kıyamet Alametleri, səh. 162, 163)

(HZ. MEHDİ (Ə.S)), ALLAH`IN İZNİ İLƏ, DAŞ KİMİ QƏLBLƏRİ YUMŞALDACAQ, KÖMÜR KİMİ RUHLARI ALMAZA ÇEVİRƏCƏK, ölü ruhları imanın nuru ilə diriləcək. (El-Kavlü'l-Muhtasır, səh. 24; Şaban Döğen Mehdi ve Deccal, səh. 194-195)





Hz. Mehdi (ə.s) hər kəsə sevgi və mərhəmətlə yanaşacaq, Onun yanında bütün insanlar rahatlıq tapacaqlar. İnsanlar arasındakı kin, düşmənçilik hissləri yox olacaq, bütün yer üzündə sülh və əmin-amanlıq bərqərar olacaq.

QAB SU İLƏ DOLDUĞU KİMİ YER ÜZÜ SÜLHLƏ DOLACAQ. HEÇ KƏS ARASINDA DÜŞMƏNÇİLİK QALMAYACAQ. Və bütün düşmənçiliklər, dava-dalaşlar, paxıllıqlar mütləq yox olacaq. (Sahih-i Müslim, 1/136)

ONUN (HZ. MEHDİNİN (Ə.S)) DÖVRÜNDƏ QURDLA QOYUN BİRLİKDƏ OYNAYACAQ, İLANLAR UŞAQLARA ZƏRƏR VERMƏYƏCƏK... (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 43)

Peyğəmbərimizin (s.ə.v) hədislərində hz. Mehdinin (ə.s) ən əsas vəsflərindən biri olan sevgini aşılayacağı, təkcə insanların deyil, dənizlərdəki balıqların, göldəki quşların belə ondan razı olacağı vurğulanmışdır:

Mahmud bin Vahib Kızoğlu Bağdadi-i Hənəfi: "Cevheret-ul Kelam" adlı kitabda belə yazır: O, (HZ. MEHDİ (Ə.S)) İSTİQANLI VƏ GÖZƏL GƏNCDİR... (Cevheret-ul Kelam, səh. 157)

. .. O DÖVRDƏ (hz. Mehdi (ə.s) dövründə) YER VƏ GÖY ƏHLİ, BÜTÜN VƏHŞİ HEYVANLAR, QUŞLAR, HƏTTA DƏNİZDƏKİ BALIQLAR BELƏ ONUN XİLAFƏTİNƏ (mənəvi liderliyinə) SEVİNƏCƏKLƏR. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)



# Allah'ın isimləri (Kəbir)



Allah kainatdakı bütün canlıları öz hakimiyyəti altında saxlayır; torpağın içinə atılan minlərlə toxumun nə vaxt cücərəcəyini, bir kometin dünyanın neçə kilometr uzaqlığından keçəcəyini, hansı canlının nə vaxt doğulacağını və nə vaxt öləcəyini, atomun nüvəsinin ətrafında fasiləsiz olaraq dövr edən elektronların orbitlərini və burada saya bilməyəcəyimiz hər şeyi bilir. Allah sonsuz böyüklüyü ilə yer üzündə yaşayan bütün insanların ağlından keçən düşüncələrə, hamısının şüur altına, gördükləri işlərindəki niyyətlərinə də hakimdir.

Allah hamısının qədərini ən incə təfərrüatına qədər təyin edir. Qeybin elmi yalnız Allah'a məxsusdur. Allah'ın sonsuz ağlını, elmini, bağışlamasını, mərhəmətini və əzabını insanın qavraması qeyri-mümkündür. Allah dilədiyi hər şeyi yaratmağa qadirdir.

Heç kim Onun qərarlarına kiçik bir müdaxilə belə edə bilməz. Allah kainatdakı hər hansı bir canlı üçün zərər diləyərsə, onu heç kim aradan qaldıra bilməz, rəhmət dilədiyində də Onun rəhmətinə heç kim mane ola bilməz.

İnsanın vəzifəsi isə sadəcə bu cür böyük gücün qarşısında hörmət dolu bir qorxu ilə səcdə etmək, hər şeyin hakimi olan Rəbbimizə sığınıb özünə mərhəmət etməsini istəməkdir. Çünki Allah mərhəmət etməsə, insanın xilas olması mümkün deyil. Allah'ın böyüklüyü və Ondan başqa ilah olmadığı ayələrdə belə xəbər verilir:

**Bu, belədir. Çünki Allah Haqdır. Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah ucadır, böyükdür. (Həcc surəsi, 62)**

**Bu, belədir. Çünki Allah Haqdır. Ondan başqa ibadət etdikləri isə batil (bütlərdir). Həqiqətən, Allah ən ucadır, ən böyükdür. (Loğman surəsi, 30)**

# ERİTROSİTLƏRİN XÜSUSİ OLARAQ YARADILMIŞ YASTI FORMASI

- **Eritrositlərin vəzifəsi nədir?**
- **Eritrositlərin yastı olmalarının əhəmiyyəti nədir?**
- **Bu yastı formanın pozulması nəyə səbəb ola bilər?**



Qırmızı qan hüceyrələri, yəni eritrositlər qanda ən çox olan hüceyrələrdir. Vəzifələri hüceyrələrin yaşaması üçün vacib olan oksigeni daşımaqdır. Sadəcə bununla kifayətlənmir, bədəni təmizləmək üçün hüceyrələrdə yığılmış karbondioksidi də ürəyə geri qaytarırlar.

## Eritrositlərin reallaşdırdığı oksigendaşıma prosesini nə üçün başqa hüceyrələr yerinə yetirə bilmir?

Bir damla qanın 99 %-ni qan hüceyrələri, yəni eritrositlər təşkil edir. Bədənimizdə təxminən 25 trilyon qırmızı qan hüceyrəsi var. Bu miqdar Südyolu qalaktikasındakı ulduz sayının yüzlərlə qatıdır. Bədəndə gəzən eritrositlər rahatlıqla bir futbol sahəsinin yarısını tuta bilərlər. Bir-birlərinə ard-arda bağlandıqlarını düşündüyümüz zaman isə 47 000 km-lik bir qüllə meydana gətirə bilərlər. Əgər eritrositləri bir xalça kimi yerə sərmək imkanımız olsaydı, bu hüceyrələrin 3 800 $km^2$-lik bir sahəni tutduğuna şahid olarıq. Bədəndə eritrositlərin sayı o qədər çoxdur ki, ölənlərin yerini tutmaq şərtilə saniyədə 3 milyona qədər yeni eritrosit hüceyrəsi qana qarışır. Eritrositlərin sayının bu qədər çox olması öhdələrinə götürdükləri həyati vəzifə ilə əlaqədardır. Bu xüsusi vəzifə üçün yaradılmış eritrositlər özünəməxsus quruluşları ilə diqqət çəkirlər. Eritrositlər yastı, yumru və hər iki yandan basıq formaları ilə böyük yaradılış dəlilidirlər. Eritrositlərin formasının yastı olması:

- Hüceyrənin səth sahəsini artırır və oksigen ilə təmasını asanlaşdırır.
- Oksigenin lazımi zamanda, lazımi yerə asanlıqla çatdırılmasını təmin edir.
- Eritrosit bu quruluşu sayəsində daha çox oksigen atomu ilə yüklənə bilir və oksigenə ehtiyac duyan toxumalara rahatlıqla çatdırır.

## Eritrositlərin yastı forması bu hüceyrələrin damarlardan rahat keçməsini təmin edir.

Eritrositlər damarların içində gəzən ən kiçik hüceyrələrdir. Bu, oksigenin bədəndə hər yerə çatdırılması üçün olduqca əhəmiyyətlidir. Ancaq bəzən eritrositlərin qarşısına çox kiçik ölçülərdə kapilyar damarlar çıxır. Bəzən təxminən 5 mikrometrə qədər incəlikdə olan bu damarlar, yarı ölçüsü 7-8 mikrometr olan eritrositlər üçün çətin tunellərə çevrilir. Eritrositlər bu tunelləri keçməlidirlər, çünki kapilyar damarlar qidaların və oksigenin bütün toxumalara çatmasını təmin edən olduqca əhəmiyyətli qan damarlarıdır. Əslində, eritrositlərin bu damarlara yerləşməyəcək qədər böyük olmaları böyük bir problem yaratmalıdır. Ancaq eritrositlərin xüsusi olaraq yaradılmış formaları sayəsində heç bir problemləri olmur, çünki onlar elastikdirlər. Hər formaya çevrilə bilən bir torba kimidirlər. Rahat şəkildə forma dəyişdirmələrinin vacib səbəbi isə eritrositlərin daşıdıqları maddələrin miqdarına görə çox geniş bir hüceyrə qılafına sahib olmalarıdır. Beləliklə, hücyrə çətin hərəkət edəcəyi sahələrə girsə də, hüceyrə qılafı gərilmir və digər hüceyrələrdə olduğu kimi yırtılmır. Bu, olduqca əhəmiyyətli bir vəziyyətdir. Elastikləşərək formasını dəyişdirə bilən bu hüceyrələr daha dar olan damarlardan bunun sayəsində keçə bilirlər. Hər şeyi qüsursuzca yaradan Allah bu hüceyrəni də yaradılış dəlillərindən biri kimi yaratmışdır. Quranda Allah'ın hər şeyə hakim olduğu belə bildirilir:

***Mən, Rəbbim və Rəbbiniz olan Allah'a təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir.* (Hud surəsi, 56)**



## Rəbbimizin hemoqlobin və eritrositləri bir-birinə müvafiq şəkildə yaratması çox böyük bir nemətdir

Allah'ın hemoqlobin və eritrosit kimi iki fərqli quruluşu bir-birinə uyğun yaratması və onları birlikdə hərəkət etmələrini təmin edəcək xüsusiyyətlərlə təchiz etməsi, şübhəsiz, çox böyük üstünlükdür. Eritrositin sahib olduğu yastı forma qüsursuz bir yaradılışın əhəmiyyətli göstəricilərindən biridir. Şübhəsiz, Allah eritrositlərin böyüklüyünü kapilyar damarlara uyğun olaraq yaratmağa qadirdir. Ancaq mövcud olan quruluş insan bədəni üçün ən ideal ölçülərdədir. Bu, hər şeyin varlığını, varlığı boyu keçirəcəyi halları bilən, təyin edən və ona görə yaradan, yoxdan var edən uca Allah'ın əsəridir.

Bu möhtəşəm yaradılışın əhəmiyyətini daha yaxşı başa düşmək üçün damarlarda meydana

Düşünən İnsan, Avqust 2013

gələn hər hansı bir problemin yaratdığı nəticələrə baxaq. Əgər eritrositin formasında və ya elastikliyində hər hansı bir problem yaranarsa, toxumalara oksigen və qidanın çatmaması nəticəsində toxuma məhv ola bilər.



## Eritrositlərdəki yastı formanın pozulması təhlükəli xəstəlik olan "Oraq hüceyrə anemiyasına" səbəb olur.

Oraq hüceyrə anemiyası eritrositlərin formasının pozulması ilə meydana gələn bir xəstəlikdir. Hüceyrələr "hemoqlobin S" adlanan anormal bir hemoqlobin tipi daşıyırlar. Bu hemoqlobin oksigensiz qaldığı zaman eritrositin içində uzun kristallar şəklində çökür və eritrositin formasını bir növ orağa bənzədir. Eritrositin dəyişilmiş forması aşağıdakı xəstəliklərə səbəb olur:

- Kifayət qədər oksigen daşına bilmir və bir müddət sonra eritrosit kütləsi azalmağa başlayır
- Forması dəyişən hüceyrələr damarların içində yığılaraq tıxanmağa səbəb olur
- Hüceyrəni oraq formasına gətirən kristal quruluşun incə ucu isə bəzən hüceyrə qılafının yırtılmasına səbəb olur
- Xəstəliyin təsiri isə olduqca ciddidir.
- Sümüklərdə, əzələlərdə və ya qarında günlərlə və ya həftələrlə davam edən şiddətli ağrılar meydana gəlir
- Eritrositlər dar torlu qişa damarlarına çata bilmədiklərindən görmə pozuqluğu, hətta korluq əmələ gəlir
- Qaraciyərdə gedən proseslərin pozulması sarılıq xəstəliyinə səbəb ola bilər
- Uşaqlarda böyümə ləngiyir
- Bədən infeksiyalara açıq hala gəlir
- Beyindəki kiçik qan damarlarının tıxanması nəticəsində beyinin bəzi hissələri zədələnir. Bəzən bu vəziyyət ifliclə nəticələnir.

Bu xəstəlik bir neçə saat içində belə olduqca təhlükəli hala gəlir. Oraq hüceyrə anemiyasına kiçik yaşlarda tutulmuş insanlar xəstəliyin ölümcül olmaması üçün həyatları boyu müalicə olunmaq məcburiyyətində qalırlar. Yenidən xatırladaq: səbəb yanlız eritrosit hüceyrələrinin formasındakı pozuqluqdur.

## Oraq hüceyrə anemiyası xəstəliyi haqqında təkamülçülər böyük bir yanlışlıq içindədirlər.

Oraq hüceyrə anemiyası kimi təhlükəli bir xəstəlik haqqında bəlkə də ən təəccüblü iddia təkamülçülərə məxsusdur. Təkamülçülər üçün bu xəstəlik təkamül müddəti üçün bir "dəlildir". Təkamülçülər oraq hüceyrə anemiyası xəstəliyinə tutulan insanların malyariya xəstəliyinə qarşı



dözümlü olmalarını fayda kimi qəbul edir və buna səbəb olan mutasiyanı faydalı mutasiya nümunəsi kimi qələmə verirlər. Halbuki, oraq hüceyrə anemiyası xəstəliyi olduqca ciddi, hətta ölümcül xəstəliklərə yol açan, bədəndəki bəzi orqan və toxumaların qidalanmamasına və dolayısı ilə ölümünə səbəb olan, sonrakı nəsillərə də çataraq yayılan təhlükəli bir xəstəlikdir. Şübhəsiz, belə bir xəstəliyin faydalı mutasiya nümunəsi kimi qəbul edilməsi mümkün deyil. Əlbəttə, insan nəslinə zərər verən genetik bir xəstəliyi təkamülə dəlil kimi göstərmək nəzəriyyənin nə dərəcə zəif əsaslar üzərində qurulduğunu göstərir. Allah Quranda insanların bir qisminin vicdanları doğrunu qəbul etdiyi halda, təkəbbürləri və qürurları səbəbilə həqiqəti görməzlikdən gəldiklərini və Allah'ın varlığını inkar etdiklərini bildirir:

**Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!e (Nəml surəsi, 14)**

**Göylərdə və yerdə nə varsa, Onundur. Həqiqətən, Allah Zəngindir, Tərifəlayiqdir. Məgər Allah'ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir. (Həcc surəsi, 64-65)**




**De: "Allah'dan başqa yalvardığınız şəriklər haqda düşündünüzmü? Bir mənə göstərin görüm, onlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərin yaradılmasında şərikliyi var?" Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Zalımlar bir-birinə ancaq yalan vəd verirlər.**
**(Fatir surəsi, 40)**

# ALLAH RİZASININ ƏN ÇOXUNU AXTARMAQ NƏDİR?

Mömin şirkdən, Allah'dan başqa xəyali ilahlardan mədət ummaqdan, onların razılığını axtarmaqdan arınıb təmizlənmişdir. O, yalnız Allah'a qulluq edir, Allah'ın razılığını axtarır. Bunu Allah yolunda ciddi bir səy göstərərək edir.
Allah yolunda ciddi səy göstərməyin açarı isə Allah rizasının ən çoxunu axtarmaqdır. Mömin qarşısında doğru olan bir neçə seçim birdən olduğunda özünə Allah'ın razılığını ən çox qazandıracaq seçimi etməlidir.

Mömin bütün həyatını Allah'ın bildirdiyi halallar çərçivəsi daxilində yaşamalıdır. Haramlar Quranda açıq şəkildə bildirilmişdir və olduqca azdır. Bu müəyyən haramlardan başqa bütün hərəkət və davranışlar halal dairəsi çərçivəsindədir.

Bunlarla yanaşı, möminə düşən Allah'ın halal buyurduğu sərhədlər daxilində öz ağıl və bəsirətindən istifadə edərək Allah'ın razılığının ən çoxunu axtarmağa yönəlməkdir.

Buna infaq (Allah yolunda xərcləmə) mövzusu gözəl nümunə ola bilər. Mömin malını və canını Allah'a təslim etmişdir. Əlindəki imkanları Onun razılığına uyğun şəkildə qiymətləndirməlidir. Amma bunu edərkən qarşısına müxtəlif alternativlər çıxa bilər. Məsələn, əlində xeyli miqdarda pul olduğunu düşünək. Bununla özünə yeni bir paltar ala bilər. Bu, məqbul və çox doğru hərəkətdir. Geyiminə fikir verməsi, təmiz və gözəl bir görünüşdə olması Allah'ın razılığına uyğundur. Lakin bu pulu istifadə edə biləcəyi və Allah'ın razılığını daha da çox qazanmağa səbəb ola biləcək başqa bir yol ola bilər. Məsələn, bu pulu özündən daha çox ehtiyacı olan bir kasıba verməklə, ya da bu pulu dinin mənfəətləri üçün çox vacib bir işə qoymaqla Allah'ın razılığı daha çox qazana bilər. Bu, içində olduğu mühit və şərtlərə görə insanın öz vicdanı əsasında müəyyən edə biləcəyi bir haldır.

Başqa nümunə də verə bilərik: mömin yaxşılığı əmr edib, pislikdən çəkindirməklə, Allah'ın dinini təbliğ etməklə, yer üzündəki zülmə qarşı fikri mübarizə aparmaqla məsuldur. Allah'ın razılığını, bu böyük məsuliyyəti yerinə

yetirməklə qazana bilər. Bu məsuliyyət hər dövr üçün bəzi əsas xidmətlər ortaya çıxarır. Belə böyük bir məsuliyyətin doğurduğu çox iş var ikən, Allah'ın doğru saydığı bir başqa işi daha vacib hesab etmək yanlış olar.

Əslində, bir az düşündüyümüzdə dəyəri az olan seçimi etməkdə nəfsin qabarıq olduğunu görərik. Allah qatında dəyəri az olan şeyi çox olana seçmək, insanın nəfsinə də bir pay ayırmasından qaynaqlanır. Halbuki, nəfsinə ən kiçik pay belə ayırmadan tam olaraq Allah'ın razılığını güdmək lazımdır. Bir işdə doxsan doqquz faiz Allah'ın razılığı, bir faiz də nəfsinin istəkləri varsa, o doxsan doqquz faizi də Allah qatında qəbul edilməyə bilər. Çünki bu, insan nəfsini Allah'a şirk qoşmaq deməkdir. Şirkin isə bir faizi belə həmin əməli etibarsız etmək üçün kifayət edə bilər. Bir işdə Allah'la yanaşı, başqa bir varlığa pay ayıranların vəziyyəti belə bir nümunə ilə təsvir edilir:

Onlar Allah üçün Onun yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz (batil) iddialarına əsasən: ***"Bu, Allah üçündür, bu da şərik qoşduqlarımız (bütlər) üçündür", – deyirlər. Şərikləri üçün ayırdıqları (pay) Allah'a çatmır, Allah üçün ayırdıqları (pay) isə şəriklərinə çatır. Onların verdikləri hökm necə də pisdir! (Ənam surəsi, 136)***

Öz evi, ailəsi təhlükədə olan zaman onları müdafiə edən bir insan Qurana hücum və böhtan atıldığında yerində oturub əhəmiyyət vermədən başqa işlərə başı qarışırsa, burada Allah rizasının olduğundan danışmaq mümkün deyil. Belə bir davranış insanın nəfsinin göstərdiyi şəkildə davrandığını, nəfsinə tabe olduğunu göstərir ki, bu İslamın təməli olan yalnız Allah'a qulluq etmək prinsipinə tamamilə ziddir. Belə ki, Quranda nəfsin arzularına görə hərəkətin Allah'a şirk qoşmaq olduğu da bildirilir:

***Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? (Furqan surəsi, 43)***

Mömin isə bütün varlığını, malını, canını, həyatını, qısacası, hər şeyini Allah'a həsr etmişdir. Allah'a iman gətirən insanların bu üstün xüsusiyyəti Quranda belə xəbər verilir:

***De: "Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah'a məxsusdur! (Ənam surəsi, 162)***

Hər dövrdə müsəlmanlar fərqli hadisələrlə imtahan edilə bilərlər. Məsələn, indiki dövrdə müsəlmanlar dini və yaradılışı inkar edənlərə, cəmiyyət içində əxlaqsızlığın yayılması üçün çalışanlara qarşı fikri mübarizə aparmalıdırlar.Möminlər hər zaman məsuliyyətini daşıdıqları bu mübarizə üçün nəyin ən xeyirli olduğunu təsbit edib onu tətbiq etməklə məsuldurlar.

Çünki belə bir məsuliyyəti bildiyi halda, sırf nəfsi üçün təcili olmayan işlərlə məşğul olmaq Allah'ın razılığından üz çevirmək mənasını verir.

Mömünin vicdanı onsuz da belə bir şeyi qəbul etməz. O, Allah'ın seçib iman verdiyi bir insandır, yer üzündə sülh və hüzur mühitinin olması, Allah'ın dininin yaşanması ona əmanət edilmişdir. Zalımların əzib zülm etdiyi və ***«...Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!...» (Nisa surəsi, 75)*** deyən kişilər, qadınlar və uşaqlar uğrunda mübarizə aparmaqla məsuldur.

Allah'ın razılığının ən çoxu yalnız fikri mübarizə mövzusu deyil. Mömin həyatı boyunca etdiyi bütün ibadətlərdə, gündəlik həyatında qarşısına çıxan böyük-kiçik bütün hadisələrdə bunu yadında saxlamaq məcburiyyətindədir.

Bunu da xatırlatmaq lazımdır ki, əslində, Allah rizasının ən çoxu ifadəsini mövzunu açıqlamaq üçün istifadə edirik. Allah rizasının ən çoxundan üz çevirib, ikinci dərəcəli bir işlə maraqlanmaq Allah'ın razılığına ziddir. Onsuz da Allah'ın razılığının ancaq ən çoxu Allah'ın razı olduğudur. Allah'ın daha az razı olması deyə bir şey yoxdur. Allah'ın razılığının ən çoxunu axtarmayıb, azı ilə kifayətlənmək, əslində, insanın axirətlə bağlı qəti imana sahib olmamasından qaynaqlanır. Özünü qəti olaraq cənnətlik saymasından irəli gəlir. Halbuki, heç bir insan özünü qəti olaraq cənnətlik görəcək vəziyyətdə deyil. Quranda Allah Peyğəmbərə ***«Əgər Allah istəsə, sənin qəlbinə möhür vurar» (Şura surəsi, 24)*** xəbərdarlığını etmişdir.

***Quranda təsvir edilən mömin özünü əsla qəti olaraq cənnətlik görməz, belə bir düşüncəyə qapılmaz. Mömin xüsusiyyəti Allah'a «qorxu və ümidlə» (Əraf surəsi, 56***) dua etməkdir.

Həqiqi iman sahibi olmayan kəslər isə Allah'dan qorxmadıqları və yaxşı işlər gördüklərini zənn etdikləri üçün özlərini qəti olaraq cənnətlik görürlər. Allah'ın rəhmətini «necə olsa bağışlanacağıq» kimi yanlış bir məntiqdən istifadə edirlər. Bu Allah'dan gərəyi kimi qorxub çəkinməyənlərin düşüncəsidir.

Mömin isə iman gətirdikdən sonra doğru yoldan çıxmaqdan qorxar. Quranda xəbər verilən möminlərin bu mövzu ilə əlaqədar duası belədir:

***Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxş edənsən.***

***(Ali-İmran surəsi, 8)***





Mömin qurtuluşu üçün ən çoxunu axtarmaqla məsuldur. Allah rizasının ən çoxunu axtarmamaq, qarşı-qarşıya olunan təhlükənin də fərqində olmamaq deməkdir.

Dünyəvi təhlükələrdə göstərəcəyimiz davranışa bir neçə nümunə Allah rizasının ən çoxunu axtarmağın necə olacağının daha yaxşı başa düşülməsinə köməkçi olacaq:

-Böyük bir sellə qarşı-qarşıya qaldığımızda və suların böyük sürətlə yüksəldiyini gördüyümüz zaman xilas olmaq üçün on mərtəbəli mənzilin ən üst mərtəbəsinə çıxarıq, yoxsa beşinci mərtəbədə dayanıb: «Hər halda, bu qədər mərtəbə bəs edər», -deyərik?

-Mənzilin ən üst mərtəbəsinə müəyyən məbləğ qarşılığında liftin çıxdığını və liftin bir daha aşağı enməyəcəyini fərz edək. Cibimizdə də ən üst mərtəbəyə çıxacaq qədər pul var. Bu halda, ən üst mərtəbəyə çıxmaq üçün cibimizdəki bütün pulu verərik, yoxsa selin çatma təhlükəsi olan başqa bir mərtəbəyə çıxmaqla kifayətlənərik?

-Seldən xilas olmaq üçün sığındığımız mənzilin beşinci mərtəbəsində bir əyləncə təşkil edilmiş olduğunu düşünək. Belə bir vəziyyətdə əyləncəyə qatılıb beşinci mərtəbənin yüksəkliyi ilə kifayətlənərik, yoxsa gözümüz heç bir şeyi görmədən ən üst mərtəbəyə çıxarıq?

-Bir yaxınımızın infarkt keçirdiyini və ya başqa bir səbəblə xəstəxanaya çatdırılması lazım olduğunu düşünək. Bu vəziyyətdə xəstəxanaya çatmaq üçün avtomobili ən yüksək sürətlə sürərik, yoxsa: «Bu qədəri kifayətdir, bir az daha səbir etsin», -deyərik?

Verdiyimiz nümunələrdən məlum olduğu kimi, insan bir təhlükə ilə qarşı-qarşıya olduğunda ayıq-sayıq davranıb əlindəki bütün imkanları təhlükədən xilas olmaq üçün səfərbər edə bilir. Cəhənnəm isə insan üçün ən böyük təhlükədir. Əlbəttə ki, Allah rizasının ən çoxunun axtarmaq bu təhlükədən uzaq olma istəyində vacib rol oynayır.



# Pinqvinlərin

Pinqvinlər təxminən -400C - lik bir mühitdə yaşamaq üçün xüsusi təchizatlara sahibdirlər. Buzun üzərində yaşayır, qidalanır, ovlayır və balalarını böyüdürlər. Bu, şübhəsiz, böyük əmək tələb edən işdir. Ancaq pinqvinlər bir insanın əsla yaşaya bilməyəcəyi belə bir mühitdə varlıqlarını problemsiz davam etdirə bilirlər. Əlbəttə, bu, canlıları və onların yaşadıqları şəraiti yaradan uca Allah'ın böyük möcüzəsidir.

Pinqvinlərin sərt hava şəraitindən mənfi təsirlənən balalarının xüsusi qayğıya ehtiyacı var. Dişi pinqvin, adətən, bir yumurta çıxarır və bu yumurtanın bütün məsuliyyəti erkək pinqvinə aid olur. Kürtə erkək pinqvin yatır və təxminən -40$^{o}$C - də 65 gün boyunca yerindən heç tərpənmədən bu vəzifəni yerinə yetirməyə çalışır. Bu 65 gün onlar üçün, həqiqətən də çətin mərhələdir. Bu müddət boyu erkək pinqvin dondurucu soyuqda hərəkətsiz və heç yemək yemədən olduğu yerdə qalır. Şübhəsiz ki, bir insan üçün belə bir vəziyyətin nəticəsi ölümdür. Lakin erkək pinqvin heç tərəddüd etmədən, şikayət etmədən öhdəsinə götürdüyü bu vəzifəni sona qədər davam etdirir. Allah ona etməli olduqlarını ilham etmişdir. O da Allah'a boyun əymişdir. Allah bir ayəsində bu həqiqəti insanlara belə xəbər verir:

***Mən Rəbbim və Rəbbiniz olan Allah'a təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. (Hud surəsi, 56)***

Kürtdən çıxan bala ilk iki ayı ata-anasının ayaqlarının arasında keçirir. Bu qoruma bala üçün çox əhəmiyyətlidir. Çünki səhvən 2 dəqiqəlik belə buradan çıxması donaraq ölümünə səbəb olar. Ancaq belə bir vəziyyət mümkün deyil, çünki kiçik pinqvin digər bütün canlılar kimi Allah'ın qoruması altındadır. Ata-atasına onu qorumaları lazım olduğunu ilham edən, onu qışın çətin iqlim şəraitində isidib yaşadan bütün aləmlərin Rəbbi olan Allah'dır.

Dişi pinqvinlər kürt dövründə və sonra da balalarına baxa bilmək üçün uzun səfərlərə çıxırlar. Pinqvinlər böyük gövdəli olmalarına baxmayaraq, yerişlərini çətinləşdirəcək qədər kiçik qıçlara sahibdirlər. Normal şəraitdə bu yeriməyi çətinləşdirəcək və canlının daha çox enerji xərcləməsinə səbəb ola biləcək çatışmazlıq kimi görünür. Məhdud miqdarda qida ilə uzun səfərlərə çıxan bu canlılar üçün bu vəziyyət olduqca böyük çətinlik deməkdir.

Ancaq vəziyyət heç də belə deyil. Pinqvinlər sağa və sola yellənərək yeriyirlər. Bu rəqqasa bənzər maraqlı yerişin olduqca

# qeyri-adi xüsusiyyətləri

böyük əhəmiyyəti var. Bu yeriş sayəsində pinqvinlər böyük ölçüdə enerji qənaəti edirlər. Pinqvinlər yana doğru addımlar ataraq qıçlarının qısalığının onlara verəcək zərərini aradan qaldırır və əzələlərinin daha az yorulmasını təmin edirlər. Hətta hər addımın sonunda bir sonrakı addım üçün enerji yığmış olurlar.

Pinqvinlər əgər düz yerimiş olsaydılar, öz ölçülərindəki bir heyvandan iki qat daha çox enerji sərf etməli olacaqdılar. Ancaq bu xüsusi yeriş forması sayəsində pinqvin yalnız yeriməyə başlayarkən və dayanarkən enerji sərf edir. Məhdud olan qidasının dənizə çatmağa öyrəşən pinqvinə kifayət etməsi üçün ən məqsədəuyğun üsul budur.

Dişi pinqvin özünə verilmiş üstün xüsusiyyət sayəsində kilometrlərlə yol yeriyə bilir və qida toplayır. Erkək pinqvin yenə özünə verilmiş üstün xüsusiyyət sayəsində günlərlə dondurucu soyuğun altında hərəkətsiz və yeməksiz qala bilir. Bala pinqvin atasının ayaqlarının arasında dondurucu soyuğa tab gətirə bilir və böyüyənə qədər qorunur. Bunlar Allah'ın varlığının, üstün yaratma sənətinin, gücünün, şəfqətinin və rəhmətinin təcəlliləridir. Onları belə yaşadan, nələrə ehtiyacları olacağını bilən, onları qoruyan, onlara ruzi və nemət verən göylərin və yerin hakimi olan Allah'dır.



Düşünən İnsan, Avqust 2013

# İSLAMDA SÖZ AZADLIĞI VƏ DEMOKRATİYA

Söz və fikir azadlığı müasir konstitusiyalı demokratiyanın labüd şərti və insan hüququdur. Millətindən, irqindən və dinindən asılı olmayaraq, bütün insanlar üçün ən əsas hüquqlardan biri olan söz və fikir azadlığı hüquqi cəhətdən qorunmalıdır.

Cəmiyyətin fərdlərinin azad olması üçün fikirlərini və hisslərini ifadə etməkdə tam mənada azad olmalıdırlar. Demokratiyanın hakim olduğu ölkələrdə insanlar bu hüquqlara malikdir və fikirlərini açıq ifadə edə bilirlər.

Dünyada ən çox tələb edilən hüquqlardan olan fikir azadlığı insanların əlindən alınarsa, şübhəsiz ki, cəmiyyətdə qorxu dolu, təhlükəli mühit formalaşar. Çünki insan ancaq özünü rahat ifadə etdikdə, fikirlərini istədiyi kimi dilə gətirdikdə xoşbəxt, sağlam və yaradıcı olur, bu hüququ məhdudlaşdırıldıqda isə rahatlığını və sevincini, şövqünü, iş və incəsənət qabiliyyətini itirir.



## Demokratiya – cəmiyyətin daxili uzlaşmasını təmin edən sistem

Bir cəmiyyətin sağlamlığı demokratiya ilə başlayır. Demokratiya cəmiyyətə sevgi, hörmət, tolerantlıq, birlik, bərabərlik, qardaşlıq gətirir, insanlara sosial ədalət, bərabərlik kimi hüquq və azadlıqlar verir, onlara dinamik həyat tərzi təqdim edir, həyat səviyyələrini yüksəldir.

İnsanlar yaradılışlarına uyğun olaraq demokratik, fikirlərə hörmət edilən mühit axtarırlar. Allah nazil etdiyi kitablar və göndərdiyi peyğəmbərlər vasitəsilə bütün bəşəriyyətə demokratiyanın, fikir azadlığının, azad fikrin və fikirlərə hörmət etməyin yollarını göstərmişdir. Peyğəmbərlərin sünnəsində rast gəldiyimiz tolerantlıq, ədalət, sevgi, hörmət, etibar, fədakarlıq kimi anlayışlar demokratiyanın, fikir azadlığının əsasını təşkil edən məfhumlardır. Odur ki, dinin təməlində demokratiyanın olduğunu demək yerində olar. Demokratiyanın tərifində olduğu kimi, din hər kəsin azad yaşayacağı və fikirlərini sərbəst ifadə edəcəyi sülh mühitini təmin edir. Dində hər cür təzyiq və zorakılıq qadağandır. Hər insan sərbəst şəkildə fikrini ifadə etməli və fikirlərinə görə təzyiq görməməlidir. İnsanlar fikirlərinə görə zülmə məruz qalmamalı, müxtəlif ideologiyalara və düşüncə tərzinə malik insanlar alçaldılmamalıdır. Demokratiya da məhz dinin bu əmrlərini təklif edir, insanların azadlığını, psixoloji cəhətdən rahat, xoşbəxt olmasını, bərabər, sevgi, sülh və qardaşlıq içində yaşamasını istəyir. Bu düşüncə tərzinin cəmiyyətə tam hakim olması isə ancaq və ancaq din əxlaqı ilə yaşamaqla mümkündür. Məsələn, demokratiyanın əsas prinsipi olan sosial ədalət həqiqi mənada ancaq dinin əmr etdiyi gözəl əxlaq mühitində mövcud ola bilər. Demokratiyanın digər prinsipi olan ədalət məfhumu da dinin əmrlərindən

biridir. Peyğəmbərimizin (s.ə.v) istər müsəlmanlara, istərsə də müxtəlif din, dil, irq və millətlərə mənsub insanlara qarşı ədalətli və şəfqətli münasibəti, varlı-kasıb ayırmadan hər kəsə bərabər davranması demokratiya anlayışına ən gözəl nümunədir.

## Demokratik mühit əsl İslam əxlaqı ilə formalaşar

Bu gün din dedikdə qərb ölkələrində sevgi, hörmət, mərhəmət, tolerantlıq və demokratiya anlayışından məhrum, həmçinin incəsənət, elm və estetikaya qarşı çıxan, müharibə və qarşıdurma tərəfdarı qantökən insan modeli yada düşür. Qərb xalqlarının din haqqında belə yanlış qənaətə gəlməsinə səbəb olan xurafatçı kütlə var və bu insanlar, əslində, dinin əmr etdiyi şəfqət, mərhəmət, nəzakət və əxlaq anlayışlarına malik deyillər, buna baxmayaraq, özlərini dindar kimi təqdim edirlər. Ona görə, milyonlarla insan İslamı səhv tanıyır, İslamın (dini tənzih edirik) insanları hüquq və azadlıqlardan məhrum edən, incəsənət və elmi məhdudlaşdıran, düşüncələri nəzarətdə saxlayan din olduğunu zənn edirlər. Halbuki, İslam insanlara fikir azadlığını təmin edən, insanların hər cür hüququnu qoruyan dindir. Qurani-kərimdəki bir çox ayə bunu göstərir:

***Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan ayırd edildi. Hər kəs Taqutu inkar edib Allah`a iman gətirsə, o, artıq ən möhkəm bir ipdən yapışmış olur. Allah eşidəndir, biləndir!***
***(Bəqərə surəsi, 256)***

***Öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!***
***(Ğaşiyə surəsi, 21-22)***

***De: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın". (Kəhf surəsi, 29)***

***De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 1-6)***

Əsl müsəlmanın hədəfi Allah`ın əmr etdiyi gözəl əxlaqı mənimsəmək, dini Allah`ın öyrətdiyi kimi yaşamaq və təbliğ etməkdir. Şübhəsiz ki, Allah`ın əmr etdiyi əxlaqla yaşadıqda dünyanın hər tərəfində arzu edilən demokratik mühit dərhal formalaşacaq.



Düşünən İnsan, Avqust 2013



Sonsuzluq içində insan ancaq bir dəfə sınanır və bu imtahan müddəti təqribən 6-7 onillikdən ibarətdir. İnsanın əbədi həyatını bu imtahan müddətindəki əməlləri müəyyən edir. Qısa, ancaq çox vacib olan bu müddəti də insan özünü aldadaraq keçirərsə, imtahandan keçə bilməz. Məsələ də məhz bundan ibarətdir: insan özünü aldadaraq nə həqiqəti dəyişdirə bilər, nə də məsuliyyətdən azad ola bilər. Əksinə, insanın dünyada həqiqətlərdən qaçması ancaq öz əleyhinədir. İnsan vicdanını susduraraq özünü aldatdığı, müxtəlif bəhanələrlə rahatlatmağa çalışdığı hər an, əslində, qorxunc itki verir. Axirətdə isə bu ağılsızlığına görə - Allah`ın izni ilə - peşmançılıq çəkəcək.

Vəziyyət belə olduğu halda, insan özünü aldatmamalı, əksinə, çox açıq şüur və diqqətlə Allah`a qulluq vəzifəsini yerinə yetirməlidir. Bu isə insanın hər an vicdanının səsini dinləməsi və Allah`ın kitabına tabe olması ilə mümkündür.

# ÖZÜNÜ ALDATMAQ ƏVƏZİNƏ SƏMİMİYYƏT

Səmimi iman gətirən bir insan üçün başqa yol yoxdur. İnsanın dünyada yaşadığı müddətdə hər keçən saniyə ölümə və məhşər gününə bir az da yaxınlaşdığını, hər əməlini, ağlından keçən hər fikri Allah`ın bildiyini və bunlardan məsul olduğunu düşünməsi ən gözəl və qazanclı yoldur.

Diqqət edin, Allah`a qarşı səmimi olmağa aparan bu yol insan üçün ən asan yoldur. Bir anlıq düşünüb qərar verdikdən sonra insan bütün həyatı boyu bu qərarın gətirdiyi şüur açıqlığı ilə yaşaya bilər. Bu şüur açıqlığını qazandıqda isə heç bir məsələdə özünü aldadaraq axirətdə əbədi zərər çəkməz. Unutmayın, özünü aldatmaq insan üçün bir növ odla oynamaqdır. İnsan bu şəkildə vaxt keçirərkən və dünyaya aludə olarkən bir anda canını almağa gələn mələklərlə qarşılaşa bilər. Mələklər canını bir ayənin ifadəsi ilə zorla alarkən, görəsən, yenə özünü aldada biləcəkmi? "Nə yaxşı etdim, dünyadakı həyatım boyu yedim, içdim, gəzdim, əyləndim, üzərimə düşən məsuliyyətə, qulluq vəzifəmə etinasız yanaşdım, heç düşünmədim", - deyə biləcəkmi? Şübhəsiz ki, xeyr. Bu, ən qafil insanın belə ağlından keçirməyəcəyi düşüncədir. Tam

əksinə, o an tərif edilməz qorxu, dəhşət və təşviş keçirəcək. Ancaq bu, hələ başlanğıcdır, cəhənnəmin qapılarından içəri girdikdə bu qorxu və peşmançılıq dözülməz həddə çatacaq, ruhu sonsuz əzaba düçar olacaq.

Bütün insanlar bunu qətiyyən unutmamalıdırlar. Allah bu həqiqəti ayələrində xatırladarkən özlərini aldadan insanların peşmançılığını və çarəsizliyini də belə bildirir:

***Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz. Əzab sizə fərqinə varmadığınız bir halda, qəflətən gəlməmişdən əvvəl Rəbbinizdən sizə nazil edilən ən gözəl (sözə) tabe olun! (Sonra) kimsə deməsin ki: "Allah`a qarşı etdiyim etinasızlıqlara görə vay mənim halıma! Həqiqətən, mən rişxənd edənlərdən idim!" Yaxud deməsin: "Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!" Həm də əzabı gördüyü zaman deməsin: "Kaş ki, bir də qayıdaydım, yaxşı işlər görənlərdən olardım!" (Zumər surəsi, 54-58)***

## Özünü aldadanların aqibəti

Bütün insanların vicdanı eynidir. Vicdanlı davranmayan insanları yüksək vicdanlı insanlardan ayırd edən cəhət bildikləri həqiqətlərə etinasız yanaşmalarıdır.

Allah`ın Quranda tərif etdiyi peyğəmbər əxlaqı kimi həyatlarının hər anında vicdanlarının səsinə tabe olan insanlar gözəl, rahat həyat yaşayırlar. Çünki bu insanlar doğru yola tabe olaraq və axirətdə gözəl mükafat alacaqlarına ümid bəsləyərək mənəvi cəhətdən rahatdırlar. Vicdanlarına tabe olmayan insanların vəziyyəti isə bunun tam əksidir. Bu insanlar doğru olanı etmədiklərinə, haqqa tabe olmadıqlarına və bunun əvəzində böyük cəza çəkəcəklərini bildiklərinə görə, gizli sıxıntı, yəni vicdan əzabı çəkirlər. Hara getsələr, nə etsələr, bu sıxıntı onlardan əl çəkmir. Dünyanın ən varlı insanı olsalar da, ölkə-ölkə gəzib dolaşsalar da, bu mənəvi sıxıntıdan xilas ola bilmirlər.

Əslində, bu vicdan əzabı səhvlərini düzəltməsi üçün insana Allah`dan xəbərdarlıqdır. Ona görə, möminlər üçün böyük nemətdir. Çünki insanın tövbə edib səhvlərini düzəltməsi üçün vasitədir. Ancaq dindən və



Düşünən İnsan, Avqust 2013

səmimiyyətdən uzaq insanlar üçün də, həqiqətən, əzabdır. Onlar çəkdiyi sıxıntının səbəbini bildikləri halda, səhvlərini düzəltmək əvəzinə səbəbə etinasız yanaşırlar. Buna görə də həyatları boyu həqiqi mənada xoşbəxt və rahat olmurlar.

Həqiqətləri bildikləri halda, etinasız yanaşaraq özlərini aldadan insanlar ömür boyu mənəvi əzabla yaşayırlar. Vicdanları bu qədər əzab çəkərkən onlar özləri üçün saxta xoşbəxtlik yaratmağa çalışır, ancaq bacarmırlar. Çünki əzab çəkən vicdanı rahatlatmağın yeganə yolu Allah`a tövbə edərək səhvləri düzəltməkdir.

Əgər siz də vicdanınızı dinləmək əvəzinə müxtəlif bəhanələrlə özünüzü aldadıb nəfsinizin istək və həvəslərinə tabe olursunuzsa, böyük mənəvi əzab hissi keçirərsiniz. Ancaq özünüzü aldatdığınıza görə, çəkdiyiniz sıxıntı sadəcə dünyadakı sıxıntılarla məhdudlaşmaz. Çünki Allah dünyada özlərini aldadaraq məhşər gününə etinasız yanaşan insanların axirətdə də böyük əzab və peşmançılıqla qarşılaşacağını xəbər vermişdir. Quranda məhşər günü aldanma günü də adlanır:



*O gün (Allah) sizi toplanma gününə cəm edəcək. Həmin gün qarşılıqlı aldanma günüdür. Hər kəs Allah'a iman gətirib yaxşı işlər görsə, (Allah) onun günahlarını bağışlayar və onu altından çaylar axan cənnət bağlarına daxil edər. Onlar orada əbədi qalacaqlar. Bu, böyük müvəffəqiyyətdir. Kafir olub ayələrimizi yalan sayanlara gəldikdə isə onlar cəhənnəm sakinləridir. Onlar orada əbədi qalacaqlar. Ora necə də pis dönüş yeridir!*

*(Təğabun surəsi, 9-10)*



# Bir ayə bir açıqlama

***Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram.***
***(Taha surəsi, 82)***

Allah`ın bağışlayan ismi Rəbbimizin insanlara bəxş etdiyi ən böyük nemətlərdən və asanlıqlardan biridir.

Bir insanın günah etməsi onun artıq doğru yola qayıtmayacağı demək deyil. Allah ayədə günahlarına görə səmimi tövbə edən, bağışlanma diləyib artıq o günahı etməməyə çalışan, saleh işlər görən, Quran əxlaqı ilə yaşayıb doğru yolu tapan hər kəsi bağışlayacağını bildirir.

İnsanlara səhvlərinə və günahlarına görə həmişə bağışlanma diləmək və tövbə etmək imkanı verir. Səmimi şəkildə səhvlərini görüb düzəldən və Allah`a tövbə edən insan Allah`ın onu bağışlayacağına ümid bəsləyə bilər. Allah Quranda bir çox ayədə əfv edən, bağışlayan, qoruyan, mərhəmət edən olduğunu bildirir. Allah`ın Təvvab (tövbələri qəbul edən), Qəffar (bağışlayan), Rəhman (mərhəmət edən) kimi uca sifətləri peşman olan və tövbə edən hər kəsin üzərində təcəlli edir. Allah bir ayədə: **"Qullarıma xəbər ver ki, Mən, həqiqətən, bağışlayanam, rəhm edənəm!"** (Hicr surəsi, 49) -deyə buyuraraq qullarını müjdələyir.

Allah`ın şəfqətini, mərhəmətini, bağışlayan olduğunu qulaqardı edən şəxs özünə zülm edir, eyni zamanda, Quran əxlaqının tələbini yerinə yetirmir. Səhvlərini dərhal görən və Qurana uyğun davranaraq bunları düzəldən səmimi möminlər üçün bu səhvlər axirətdəki dərəcələrini yüksəldən, onları kamilləşdirən, qüsurlarını və acizliklərini, Allah`a olan qulluqlarını daha yaxşı dərk etmələrinə səbəb olan vəsilələrdir. Əsas odur ki, insan günahında israr etmədən dərhal peşman olub tövbə etsin.

Mömінin tez-tez tövbə etməsi onun təvazökarlığının və Allah qarşısında acizliyini bilməsinin əlamətidir. Allah`ın rizasına uyğun hərəkətdir. Bu ibadətin əvəzində də Allah çox tövbə edən insanların qəlbinə rahatlıq verir, onların üzərindəki ağırlığı götürür, şüurlarını açır.




# B12 VİTAMİNİNİN SƏYAHƏTİ

Mədə seliyinin bir xüsusiyyəti də qan hasil edən sümük iliyinə kömək etməsidir. Orqanizm üçün böyük əhəmiyyətə malik B 12 vitamininin sümük iliyinə çatdırılmasını təmin edir. B12 vitamininin sümük iliyinə qədər səyahəti və mədə seliyinin bu səyahətdəki rolu təhlil edildikdə mikroskopik səviyyədə baş verən möcüzə ilə qarşılaşırıq.

B12 vitamini insan orqanizminə daxil olduqdan sonra həzm sistemi boyu hərəkət edir. Daha sonra nazik bağırsaqdan qan dövranına keçərək qana qarışır və sümük iliyi hüceyrələrinə çatır.

B12 vitamini nazik bağırsaqda həzm olunur. Ancaq nazik bağırsaqdakı hər hansı həzm hüceyrəsi B12 vitaminini tutmur. Nazik bağırsağın kiçik bir bölgəsində ancaq B12 vitaminini tutan xüsusi hüceyrə qrupu var. Bu hüceyrə qrupu bütün həyatlarını möcüzəvi şəkildə ancaq B12 vitaminini tutmağa həsr edirlər. Bu hüceyrələr trilyonlarla molekulun arasından B12 vitaminini ayırd edib tuturlar.

Bəs bu hüceyrələr B12 vitaminini necə tanıyıb digər maddələrdən ayırd edirlər? B12 vitaminini tutmaqla məsul olduqlarını haradan bilirlər?

B12 vitamini orqanizmə daxil olduqdan sonra həzm sisteminə, daha sonra nazik bağırsaqdan qan dövranına keçir.

Bu hüceyrələrin B12 vitaminini tutarkən göstərdiyi ağıl, əlbəttə, təsadüfən meydana gələ bilməz. Aydındır ki, bu sistemi üstün və güclü olan uca Allah xüsusi yaratmışdır. Sistemi bir az dərindən təhlil etdikdə daha çox möcüzəvi yaradılış dəlilləri ilə qarşılaşırıq.



Nazik bağırsaqdakı hüceyrələr sərbəst haldakı B12 vitaminini tanımırlar. Bu hüceyrələrin B12 vitaminini tanıması və tutması üçün B12 vitamini xüsusi molekul ilə işarələnməlidir. Əlbəttə, bu ehtiyac da nəzərə alınmış və B12 vitamininin bağırsağa çatmadan işarələnməsini təmin edən sistem qurulmuşdur.

B 12 vitamini hələ mədədə olarkən mədə hüceyrələri B12 vitamini üçün xüsusi molekul hasil edirlər. Həmin molekul B12 vitamininin səyahətinin növbəti mərhələlərində ehtiyacı olan "şəxsiyyət vəsiqəsidir". Bu vəsiqə B12 vitamininə möhkəm yapışır və B 12 nazik bağırsağa doğru səyahətinə davam edir.

Nazik bağırsaqda ancaq B12 vitaminini tapmaqla məsul olan sərhəd gözətçiləri (xüsusiləşmiş hüceyrə qrupu) B12 hüceyrəsinin qan dövranına keçməsini təmin edəcəklər. Ancaq bu gözətçilər sərbəst haldakı B12 vitaminini tanımırlar. Məhz bu mərhələdə B12 vitamininin köməyinə əlindəki "şəxsiyyət vəsiqəsi" çatır. Sərhəd gözətçiləri "şəxsiyyət vəsiqəsi" sayəsində trilyonlarla molekulun arasından B 12 vitaminini tanıyırlar. Sonra "şəxsiyyəti müəyyən edən" bu molekulun köməyi ilə B 12 vitaminini qan dövranına daxil edirlər. Beləliklə, B12 qan yolu ilə sümük iliyinə gedir.

Göründüyü kimi, mədə hüceyrələri B12 vitamininin orqanizm üçün əhəmiyyətindən xəbərdardırlar. Bundan əlavə, bağırsaq hüceyrələrinin B12 vitaminini tanımaq üçün işarəyə ehtiyacı olduğunu bilir və bu işarə molekulunu xüsusi hasil edirlər. Gözləri, əlləri və beyni olmayan bağırsaq hüceyrələri də bu işarəni tanıyır və B12 vitaminini tuturlar.

Bir cəhəti də unutmaq olmaz: bütün bu hadisələr nəticəsində mənimsənən B12 vitamininin nə mədə hüceyrəsinə, nə də bağırsaq hüceyrəsinə faydası var. B 12 vitamini çox uzaqda – sümük iliyində istifadə olunur. Bu vitamin sayəsində insan orqanizmində qan hasil edilir və insanın həyatını davam etdirməsi təmin olunur.

Təkcə bir vitaminin səyayəti və bu səyahətdəki təfərrüatlar belə insan orqanizmində qurulmuş sistemin qüsursuzluğunu göstərmək baxımından kifayətdir.

Şübhəsiz ki, bu proseslərin şüurla həyata keçirilməsi hüceyrələrin iradəsi ilə baş vermir. Çünki hüceyrələr şüursuz atomların birləşməsindən ibarət quruluş vahidləridir. Hüceyrənin içində şüur, iradə axtarmaq mənasızdır. Buradakı sistemi yaradan hər şeyi yoxdan var edən aləmlərin Rəbbi uca Allah`dır.





# HƏZRƏTİ MUHƏMMƏDİN (S.Ə.V) GƏNCLƏRƏ VERDİYİ DƏYƏR

Uca Allah`ın ən dəyərli nemətlərindən biri olan gənclik insanın Allah`ın rizasını qazanmaq və Quran əxlaqına xidmət etmək üçün ən faydalı dövrlərindən biridir. Quran ayələrini və Peyğəmbərimizin (s.ə.v) hədislərini təhlil etdikdə Quran əxlaqının yayılmasında gənclərin böyük rolu olduğunu görürük. Uca Allah`ın qullarına göndərdiyi son peyğəmbər olan hz. Muhəmməd (s.ə.v) bütün insanları İslam əxlaqı ilə yaşamağa dəvət etmişdir. İlk müsəlmanlar arasında hər yaş dövründən olan insanlar olmuşdur. Lakin bu insanlar arasında gənclər çoxluq təşkil edir. Məkkənin tanınmış ailələrinə mənsub gənclər İslam əxlaqına xüsusi diqqət göstəriblər. İslam əxlaqını yaymaqda hz. Peyğəmbərə (s.ə.v) ən çox dəstək olan və kömək edənlər bu imanlı gənclərdir. Peyğəmbərimizə (s.ə.v) ilk



dövrlərdə inanmış müsəlmanlardan bir neçəsi 50 yaşlarında, bəziləri 35 yaşdan yuxarı, digərləri isə 30 yaşdan aşağı idi. Bütün möminlər üçün hikmətli nümunə olan bu gənclərin fəaliyyətlərinə bir çox misal çəkmək olar. Tarixi mənbələrə əsasən:

### Peyğəmbərimizin (s.ə.v) ətrafındakı bu gənclərdən

-Hz. Əli çox kiçik yaşda Rəsulullaha tabe olmuş, qələbələrinin çoxunu da 20-30 yaşları arasında qazanmışdır.

- Gənc yaşlarında Həbəşistana hicrət edən Cəfər ibn Əbu Talibin İslamı müdafiə etmək üçün Həbəşistan hökmdarının, xristian din adamlarının və saray əyan-əşrəfinin hüzurundakı hikmətli nitqi tarixə düşmüşdür.

-Musab ibn Umeyi 25 yaşında Birinci Əqəbə beyətindən sonra hz. Muhəmməd (s.ə.v) Mədinəyə müəllim göndərmişdir. Onun fəaliyyətləri nəticəsində bir çox mədinəli müsəlman olmuşdur.

-Hz. Muhəmmədin (s.ə.v) qonşu hökmdarlara və ərəb qəbilələrinə göndərdiyi məktubların çoxunu Zeyd ibn Sabit adlı gənc səhabə yazırdı. Eyni zamanda qonşu ölkələrdən gələn məktubları tərcümə etmək və bunlara cavab yazmaq üçün hz. Muhəmmədin (s.ə.v) əmri ilə ibrani və suryani dillərini öyrənmişdi. Vəhy katiblərindən biri idi. Hz. Muhəmməd vəfat etdikdə Zeyd ibn Sabitin 21 yaşı vardı.

Bundan əlavə, Peyğəmbərimizin (s.ə.v) ətrafındakı bu gənclərin ilk illərdə ərəb yarımadasından kənarda da İslam əxlaqının tanınmasına mühüm töhfələri olmuşdur.

Hz. Muhəmməd (s.ə.v) gənclərə böyük əhəmiyyət vermiş, vəhy katiblərini əsasən gənclərdən

seçmişdir. Gənclərdən müəllimlər təyin etmişdir. Gəncləri əksəriyyəti yaşlı səhabələrdən ibarət ordulara sərkərdə təyin etmişdir. Bir çox müharibədə bayrağı şəxsən özü gənclərə vermişdir.

## Hz. Musa və Əshabi-Kəhf

Firon və bütpərəst qövmü ilə nümunəvi mübarizə aparan hz. Musa qövmünü din əxlaqına dəvət etmişdir. Bu dəvəti nəticəsində iman gətirən və hz. Musanın köməkçiləri olan insanların da gənclər olduğu Quranda belə bildirilir:

***Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı gənc nəsil iman gətirdi... (Yunus surəsi, 83)***

Bir zaman Musa öz gənc xidmətçisinə belə demişdi: “Mən iki dənizin qovuşduğu yerə çatana qədər yaxud uzun illər sərf edənə qədər (səfərimə) davam edəcəyəm”.

Əshabi-Kəhf isə Quranın “Kəhf” surəsində bildirilən iman gətirən bir qrup gəncdir. “Kəhf” surəsi Peyğəmbərimizin (s.ə.v) və bir çox İslam aliminin müxtəlif cəhətləri ilə diqqət çəkdiyi surədir. Kəhf və Rəqim əhlindən bəhs edilən “Kəhf” surəsində axırzamana (hədislərdə xəbər verilən, qiyamətdən əvvəlki dövr) işarə edən bir çox ifadə var. Bu ayələrdən bəziləri belədir:

***Yoxsa əshabi-kəhfin və Rəqimin ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? O zaman gənclər mağaraya sığınıb: “Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər” – demişdilər. (Kəhf surəsi, 9-10)***



Bu ayələrdə axırzamanda gənclərin üzərinə böyük məsuliyyət düşdüyünə, batil sistemlərlə ideoloji mübarizə aparılmasında, din əxlaqının təbliğ edilməsində və zülmün aradan qaldırılmasında gənclərin mühüm vəzifəsinin olduğuna işarə edilə bilər (doğrusunu Allah bilir).

Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) hədislərində axırzamanda möminlərin başına rəhbər keçəcək mübarək şəxs olan hz. Mehdini müjdələmişdir. Axırzamanda Allah`ın zülm və fitnə-fəsadla dolu dünyanı ədalətlə doldurmaq və İslam əxlaqını yer üzünə hakim etmək üçün göndərdiyi hz. Mehdinin köməkçilərinin də gənc olduğu bir rəvayətdə xəbər verilmişdir:

Hükeym ibn Sad belə demişdir: İmam Əmirülmuminin Əlinin (ə.s) belə buyurduğunu eşitdim:

"Mehdi əleyhissəlamın əshabı gəncdir və aralarında yaşlı yoxdur; ancaq gözdəki sürmə və ya yeməkdəki duz qədərdirlər. Yeməkdəki ən az şey də duzdur."

Gənclər yer üzündə gözəl əxlaqın yayılması, müharibələrə, zülmə, müsəlmanların əziyyətinə son qoyulması üçün özlərini məsul hiss etməli və yaxşılığı əmr edib pislikdən çəkindirmək vəzifəsini boyunlarına götürməlidirlər. Zülm və ədalətsizliyin əsasını təşkil edən batil fəlsəfi sistemlərlə ideoloji mübarizə aparmalı, özlərindən əvvəlki əməlisaleh möminlərin həyatını nümunə götürməlidirlər. Beləliklə, mömin gənclər bu cəhdləri ilə dünyanı aydın gələcəyə aparacaqlar.



Düşünən İnsan, Avqust 2013

# Fosillər Təkamülü Təkzib Edir







# Trilobit

*Dövr: Paleozoy erası, Devon dövrü*
*Yaşı: 380 milyon il*
*Bölgə: Ohayo, ABŞ*

*Trilobitlər Kembri dövründə ortaya çıxan ən əsas canlılardandır. Dünyanın müxtəlif bölgələrində yaşayıblar. Ən çox Kembri dövrünə aid təbəqələrdə iz qoyublar. Trilobitlərin heyranedici xüsusiyyətlərindən biri fasetli gözləridir. Bu gözlər çoxlu gözcüklərdən ibarətdir. Bunlar eynilə milçəyin altı bucaqlı fasetli gözləri kimi hər biri ayrılıqda funksionaldırlar. Hər biri fərqli görüntünü qavrayır və bu görüntülər bir bütöv görüntü şəklində birləşir. Aparılan tədqiqatlar trilobit gözündə 3000-dən çox gözcük olduğunu göstərib. 3000-dən çox gözcük 3000-dən çox fərqli görüntü deməkdir. Bu isə 530 milyon il əvvəl yaşamış bir canlının göz və beyin quruluşunun kompleksliyini və qətiyyən təkamüllə meydana gəlməyəcək qədər qüsursuz olduğunu göstərir.*





## Qırxayaq

*Dövr: Paleozoy erası, Daş kömür dövrü*
*Yaşı: 300 milyon il*
*Bölgə: Meyzon Krik, Bredvud, İlinoys ştatı, ABŞ*

*Şəkildəki qırxayaq fosilinin 300 milyon il yaşı var. 300 milyon il əvvəl yaşamış qırxayaqların bugünkü qırxayaqlardan heç bir fərqi yoxdur. Bütün canlılar kimi qırxayaqlar da təkamül keçirməyib, yaradılıblar.*







Bütün ömrümüz boyu xaricdə əsli var olan maddənin zehnimizdəki görüntülərini izləyirik. Xarici aləmdə əsli var olan maddə dediyimiz hər şey bizim üçün sadəcə bir hissdir. Hisslərimiz rəng, işıq, dad, qoxu kimi anlayışları meydana gətirir, lakin maddə haqqında məlumat çatdıra bilmirlər. Buna görə də biz xaricimizdəki dünyanın həqiqətdə necə olduğunu heç vaxt bilə bilmərik. Elmin gəldiyi nəticə də budur. Hər şeyin yalnız maddi varlıqlardan meydana gəldiyini iddia edənlərin isə bunu sübut etmək üçün verəcəkləri cavab yoxdur. Bütün ömrümüz boyu sadəcə zehnimizdəki görüntüləri izləyirik və bütün dünyamız bu görüntülərdən ibarətdir. Buna görə də maddə adı verilən və duyğularımızın xaricində olan hər hansı məfhumu təsvir və ya şərh etmək mümkün deyil. Çünki bu anadangəlmə kor olan insanın rənglər haqqında fikir söyləməsinə bənzəyir. Rəngləri heç vaxt görməmişdir, buna görə də təsvir də edə bilməz. Belə bir təsvirə cəhd edən insan yalnız fərziyyələr irəli sürər.

Yolda gəzən bir insan həqiqətdə beyninin içindəki yolda gəzir, beyninin içindəki maşınlar yanından ötüb keçir. Əgər göz qapaqlarımıza yavaşca toxunsaq, bu həqiqət bizə daha yaxşı aydın olar. Belə ki, gördüklərimiz gözümüzdə titrəməyə başlayar. Televizorun antenasını tərpədəndə görüntünün əsdiyi kimi, burda da eyni hadisə baş verir. Beynimizin içindəki televizorun qarşısında oturub ona baxırıq, bizə nə göstərilirsə, onu izləyirik. Yeyib-içmək, yolda yerimək, məktəbə getmək, işdən qayıtdıqdan sonra dostlarla görüşmək, yəni bütün həyatımızı sanki video kasetdəki film kimi izləyirik. Təsvir, səs, qoxu, dad, toxunma duyğusu beyində hiss edilən duyğulardır. Yəni xarici dünyamızı daxili dünyamızda yaşayırıq. Bütün həyatımızı beynimizin içindəki kiçik evimizdə keçiririk. Oradakı televizordan ətrafa baxırıq. Bütün bunları beynimizdəki 1 sm3-lik hüceyrədə yaşayırıq. O hüceyrədən kənara çıxmadan həyat sürürük.

# Maddə dediyimiz məfhumun nə olduğunu tam olaraq bilirikmi?

# ELMƏ ƏSASƏN CANLILAR
# MÜKƏMMƏLDİR

